# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 54 (3292) Cümə axşamı / 11-12 iyun 2020-ci il Qiymәti 40 qəpik


## Əməliyyat

■ **Bakıda narkotacir saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Xətai Rayon Polis İdarəsi 35-ci Polis Bölməsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini N.Abdullayev saxlanılıb.** Şəxsi axtarış zamanı ondan marixuana aşkar edilərək götürülüb. Ətrafında aparılmış tədbirlərlə onun rayon ərazisindəki yarımtikililərin birində gizlətdiyi 6 kiloqram 733 qram marixuana da aşkar edilib.

## Qəza

■ **İsmayılda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Hadisə rayonun Kürdmaşı kəndində qeydə alınıb.** Kənd sakini, "Aznar" MMC-də mühafizəçi işləyən, 1989-cu il təvəllüdlü İlqar Bağırlı sərxoş vəziyyətdə idarə etdiyi "Fiat" markalı avtomobili daş hasara çırpıb. Nəticədə avtomobildə sərnişin qismində olan dayısı, 1963-cü il təvəllüdlü Mahir Osmanov hadisə yerində ölüb. Faktla bağlı İsmayıllı rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 263-1.3-cü (sərxoş vəziyyətdə yol istismar qaydasını pozma, zərərçəkənin ölümünə səbəb olma) maddəsi ilə cinayət işi başlanıb.

■ **Bakıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Hadisə paytaxtın Xətai rayonu, Nobel prospekti qeydə alınıb. Bakı şəhər sakini, 2000-ci il təvəllüdlü Tofiq Mütəllimov İdarə etdiyi BMW markalı avtomobillə hərəkətdə olarkən idarəetməni itirərək aşırıb.** Hadisə nəticəsində özü və sərnişini, 2004-cü il təvəllüdlü Mirişli Qəhrəman Tərlan oğlu ağır bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilib, sürücü xəstəxanada ölüb. Faktla bağlı Cinayət Məcəlləsinin 263.2-ci (yol istismar qaydalarını pozma, zərərçəkənin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

■ **Samuxda 3 nəfərin xəsarət alması ilə nəticələnən yol qəzası baş verib. Hadisə rayonun Qarabağlar kəndində qeydə alınıb. Belə ki, hərəkətdə olan "Mercedes" markalı minik maşını idarəetməni itirib.** Nəticədə minik maşını yol kənarındakı hasara, daha sonra qaz borusuna çırpılıb. Qəza zamanı 3 nəfər xəsarət alıb. Onlardan birinə ambulator yardım göstərilib, iki nəfər isə xəstəxanaya yerləşdirilib. Hadisə yerinə DYP əməkdaşları və təcili tibbi yardım birqadası cəlb olunub. Məlumata görə, qəzaya səbəb minik maşınının qabağına it çıxması olub. Faktla bağlı araşdırma aparılır.

## Hadisə

■ **Kürdəmir rayonunda kişi keçmiş arvadını yandırıb. DİN-in mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, hadisə iyunun 9-da qeydə alınıb.** Rayonun Muğanlı kəndində kişi keçmiş həyat yoldaşının işlədiyi sahəyə gedərək orada qadını münaqişə zəminində yandırıb. İstintaq getdiyi üçün tərəflərin kimliyi, hələ ki, açıqlanmır. Zərərçəkən qadın hazırda Bakı şəhərində yerləşən xəstəxanaların birində müalicə olunur. Hadisəni törətməkdə şübhəli bilinən keçmiş ər saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, istintaq aparılır.

# Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır




## Açılış

***İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub. Bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir.***

Beləliklə, daha üç modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həkim kollektivi ilə görüşdülər. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Bu gün çox əlamətdar bir gündür. Ölkəmizdə modul tipli üç xəstəxana açılır. Bu xəstəxanalarda koronavirus xəstələri müalicə olunacaq və beləliklə, koronavirusla bağlı mübarizədə növbəti önəmli addım atılır.

Modul tipli birinci xəstəxana bir ay bundan əvvəl, mayın 7-də açılmışdır və hazırda bu xəstəxanaların sayı dördə çatıb. Mən mayın 7-də açılış mərasimində qeyd etdim ki, bu xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə - təxminən ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə iki min çarpayımız olacaqdır və bu, koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcək.

Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Beləliklə, dövlətin üzərində yük bir qədər azalır. Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. Ona görə mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm. Eyni zamanda, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir.

ardı səh. 3 ▶



# "Brent" neftinin orta qiyməti bu il 38 dollar olacaq

**ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Agentliyinin (EIA) proqnozlarına əsasən, bu il "Brent" markalı neftin qiyməti orta hesabla 38 ABŞ dolları (bir barel üçün) təşkil edəcək. Bu, EAI tərəfindən verilən may proqnozu ilə müqayisədə 4 dollar çoxdur.** Ötən il bu göstərici 64,37 dollara bərabər olub.

Agentlik bildirir ki, 2021-ci ildə "Brent" neftinin bahalaşması müşahidə ediləcək. Belə ki, proqnozlara əsasən, gələn il sözügedən markalı neftin qiyməti 48 dollara yüksələcək, bu da ötən ay verilən proqnoz göstəricisinə bərabərdir.

Amerika Neft İnstitutunun (API) proqnozlarına görə, ABŞ-da kommersiya neft ehtiyatları ötən həftə (1-5 iyun) yenidən artıb. Ötən həftə ABŞ-ın neft ehtiyatları 8,4 mln. barel artaraq 539,4 mln. barel təşkil edib.

Qeyd edək ki, ABŞ neft ehtiyatlarının 1,2 mln. barel artacağı gözlənilirdi. Xatırladaq ki, ABŞ-ın neft ehtiyatları haqqında məlumatlar dünya bazarında olan "qara qızıl"ın qiymətinə əhəmiyyətli dərəcədə təsir edir.

ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs" xam neftin qiymətinə dair proqnozunu açıqlayıb. Bank "Brent" markalı xam neftin bir barrelinin qısa müddət üzrə orta qiymətinə dair proqnozunu 35 dollara yüksəldib.

ardı səh. 7 ▶



# Bu şəxslərin pensiya alması üçün yaş həddi azaldılır

**Əmək şəraiti xüsusilə zərərli və ağır işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla onlara yaşa görə əmək pensiyası hüququnun verilməsi nəzərdə tutulur.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, pensiya təyin edilərkən həm pensiya kapitalının, həm də ümumi stajın (kişilər üçün 25 il, qadınlar üçün 20 il) eyni anda tələb olunması zərurətinin aradan qaldırılması təklif edilir. Qeyd edilən kateqoriyadan olan vətəndaşlar üçün bu humanist yanaşma pensiya qanunvericiliyində dəyişikliklər edilməsinə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni layihədə əksini tapır. Layihədə əmək şəraiti xüsusilə zərərli və ağır işlərdə çalışan şəxslərin tələb olunan qədər stajı olmadığı hallarla bağlı da humanist yanaşma özünü göstərir. Belə hallar üçün tələb olunan pensiya kapitalının məbləğinin 30 faizə qədər azaldılması təklifi layihədə yer alıb. Bu da onların pensiya hüququna əlçatanlılığını artırır.

Qeyd edək ki, güzəştli şərtlərlə yaşa görə pensiya hüququ verən istehsalatların, işlərin, peşələrin, vəzifələrin və göstəricilərin siyahıları Nazirlər Kabineti tərəfindən təsdiqlənir. Əmək şəraiti xüsusilə zərərli və ağır olan işlər də həmin siyahı əsasında müəyyən olunur.

GÜNDƏM

# Fransada 2021-ci ildə işsizlik pik həddə çatacaq




**Fransada COVID-19 pandemiyasından sonra ölkə iqtisadiyyatı iki ilə ancaq dirçələ biləcək. Bu fikir "La Banque de France"ın hesabatında yer alıb.**

Bankın hesabatında qeyd edilib ki, koronavirus pandemiyası ölkədə məşğulluq sahəsində də problemlər yaradıb. Cari ilin mart ayında 2019-cu illə müqayisədə 2,3 faiz və ya 453 800 iş yeri itirilib. Məşğulluq səviyyəsi 2021-ci ildə stabiləşəcək. 2021-ci ilin ortalarına işsizlik pik həddinə - 11,5 faizə çatacaq. Eyni zamanda, "La Banque de France" 2021-ci ildə ÜDM-in 7 faiz, 2022-ci ildə isə 4 faiz artacağını proqnozlaşdırıb. Bankın hesablamalarına görə, məişət istehlakı ritmi artmalıdır. Ölkədə 2020-ci ildə məişət istehlakı 9,3 faiz, alıcılıq qabiliyyəti isə 0,5 faiz aşağı düşüb. 2021-ci ilin ortalarınadək vaksinin gəlişi vəziyyəti dəyişə bilər.

GÜNÜN SİTATI

*"Hər bir vətəndaş şəxsi məsuliyyətini hiss etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir. Çox təəssüf edirəm ki, bəzi insanlar tərəfindən hər birimizə məlum olan məsələlər baş verdi və ədalətsiz münasibətin şahidi olduq!"*



**Sevinc Fətəliyeva,**
millət vəkili

**Günün fotosu...**



Həyatda tək dostum sizsiniz...

"HƏFTƏ İÇİ"ndən



### Bakıxanovun dezinfeksiya edilməyən məhəllələri

Binaların həyətində çoxlu sayda qurumuş ağaclar var. Ağac var ki, yıxılıb, onu kəsib aparan yoxdur

bax səh. 7 ▶



### Su itkisini aradan qaldırmaq üçün innovativ ideyalar axtarılır

Bununla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə BMT-nin İnkişaf Proqramı yeni yarışmaya start verib

bax səh. 6 ▶

# Sərəncam



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustan rayonunun Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.** Sərəncamla iki min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,1 milyon (dörd milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Azərbaycan Yəmənə 25 min dollar məbləğində yardım ayırıb



**Yəməndə baş verən humanitar böhranla əlaqədar BMT Baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukokun Kral Salman Humanitar Yardım və Dəstək Mərkəzinin Baş direktoru Abdulla Əl Rəbiahla birgə ünvanladığı məktuba cavab olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Yəmənə humanitar yardımın göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 25 min ABŞ dolları məbləğində maliyyə vəsaiti ayrılıb.**

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, sözügedən yardımın BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi (OCHA) vasitəsilə Yəməndə humanitar böhrandan əziyyət çəkən əhaliyə təcili humanitar yardım şəklində çatdırılması nəzərdə tutulub.

"Məlumat üçün bildirmək istərdik ki, BMT-nin hesablamalarına görə dünyanın ən acınacaqlı humanitar fəlakətin yaşandığı Yəməndə 24 milyon insanın (əhalinin 80 faizi) humanitar yardıma ehtiyacı var, 250 min şəxs isə kəskin aclıqdan əziyyət çəkir. 3,3 milyon məcburi köçkünü olan ölkədə əhali arasında müxtəlif növ təhlükəli xəstəliklər yayılmaqdadır. Cari il ərzində Yəməndə humanitar ehtiyaclarının qarşılanması, o cümlədən COVID-19 pandemiyası ilə mübarizənin aparılması üçün 2 milyard ABŞ dolları həcmində vəsaitə ehtiyac duyulduğunu elan edən BMT müvafiq yardımın göstərilməsi üçün üzv dövlətlərə və beynəlxalq təşkilatlara çağırışlar edib", - deyə məlumatda qeyd olunub.

# Daha 339 nəfərdə COVID-19 aşkarlanıb, 4 nəfər vəfat edib



**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 339 yeni yoluxma faktı qeydə alınıb, 114 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.**

İndiyədək ölkədə ümumilikdə 8530 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 4720 nəfər müalicə olunaraq sağalıb, 102 nəfər vəfat edib, 3708 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Azərbaycanda yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan koronavirus testlərinin ümumi sayı açıqlanıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, indiyədək 356 032 koronavirus testi aparılıb. Son sutkada aparılmış testlərin sayı isə 6832 olub.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Polisin işi insanları, həm də öz məsuliyyətsizliklərindən qorumaqdır

***Keçən həftəsonu evdən çölə çıxmamaq qadağasının tətbiqi ilə bağlı qadağalara nəzarət edən polis əməkdaşları vəzifələrini yerinə yetirərkən bəzi xoşagəlməz olaylar yaşandı. Onların üzərinə müxtəlif əşyalar atıldı. Bunun ardınca isə həmin şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması istiqamətində polisin atdığı addımlara qarşı bəzi şəxslər təxribat yönümlü don geyindirməyə çalışdılar. Sosial şəbəkələr vasitəsilə Azərbaycan polisinə qarşı növbəti "hücum" başladıldı.***

Yaşanan olaylarda bəzi xoşagəlməz məqamlarla bağlı Daxili İşlər Nazirliyi səviyyəsində araşdırma aparılaraq vətəndaşlara qarşı qanundankənar hərəkətlərə yol verən polis əməkdaşları müəyyənləşdirildi və cəzalandırıldı. Bununla belə, ölkədə ictimai-siyasi asayişin qorunmasında əsas rol oynayan polisə qarşı bəzi qüvvələr tərəfindən aparılan kampaniyalar səngimir. Bu cür vəziyyət ölkənin ictimai-siyasi təmsilçiləri tərəfindən də kəskin qınanınılır.

■ **Sevinc Fətəliyeva, millət vəkili:**

- Hər bir ölkə vətəndaşlarını böhrandan az itki ilə çıxarmaq üçün öz strategiyasını, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və metodlarını tətbiq edir. Hökümətimiz də pandemiyanın ilk günlərində qəbul etdiyi qərarlar və karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamağa nail oldu. Əhalinin sağlamlığının qorunması istiqamətində qabaqlayıcı tədbirlərin müsbət nəticə verməsi ilə aprelin 27-dən Azərbaycanda da karantin rejiminin yumşaldılmasına, rejimdən mərhələli şəkildə çıxmağa başlanıldı. Biz özümüzlə, öz birliyimizlə qürur duyduq! Bəzi insanların məsuliyyətsizliyi və məsələni ciddiyə almaması bu gün rejimin sərtləşməsi ilə nəticələndi. Dəfələrlə müraciət olunmasına baxmayaraq, kimlərsə bu məsələyə səthi yanaşdı və qaydalara əməl etmək məsələsini unutdu. Son nəticə günün reallığıdır. Unutmaq lazım deyil ki, bizlərin hər birimizin məsuliyyətli olması olduqca vacibdir, çünki insan itkisinə səbəb olan hərəklərə yol vermək qəbuledilməzdir və acı sonluqdur. Hər bir vətəndaş şəxsi məsuliyyətini hiss etməli, Operativ qərargahın tələb və tövsiyələrinə riayət etməlidir. Çox təəssüf edirəm ki, bəzi insanlar tərəfindən hər birimizə məlum olan məsələlər baş verdi və ədalətsiz münasibətin şahidi olduq!



**Sevinc Fətəliyeva,**
millət vəkili

Respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır. Danılmaz həqiqətdir ki, respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında Daxili İşlər Nazirliyinin və onun ayrı-ayrı strukturlarının müstəsna rolu vardır.

Azərbaycan polisi hüquqi, fiziki şəxslərin qanuni mənafelərinin, mülkiyyətinin hüquqazidd əməllərdən qorunması, insanların azad, sərbəst yaşaması üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır və dünən biz bunu onların fəaliyyətində, insanlara olan münasibətində bir daha şahid olduq. Onlar vəzifə borclarını yerinə yetirməkdən əlavə hər bir kəsə övlad, qardaş münasibəti sərgilədilər.

İndi Azərbaycan polisinin işi təkcə insanları cinayətkardan yox, həm də öz məsuliyyətsizliyindən qorumaqdır. Xüsusi karantin rejimi ilə əlaqədar gücləndirilmiş iş rejimində işləyən polislərimiz təmkinlə, səbirlə insanları maarifləndirmə işləri aparırılar. Qanun qarşısında hər kəs eynilik daşıyır və bu qaydalara əməl etməyən, buna ciddi yanaşmayan kəslər sözsüz ki, etdiyi əməlin qanuni cavabdehliyini daşımalıdır. Baş verənlər, öz vəzifəsini icara edənlərə qarşı sərt münasibət və qeyri-etik davranış sərgiləmək heçdə xoşagələn deyil və ürəkacan mənzərə yaratmır. Vətəndaşlarımız həyata keçirilən tədbirləri anlayışla qarşılamalıdır. Məqsəd yalnız və yalnız vətəndaşlarımızı, insanlarımızı qorumaqdır. Bunu başqa məcraya yönəltmək, mənasız mülahizələr yürtmək zamanı deyil ! Birlik nümayiş etdirməliyik, həm maddi, həm mənəvi müstəvidə. Tövsiyələrə sözsüz əməl edilməlidir. Azərbaycan bu imtahandan üzüağ çıxmalıdır, virusa həmrəyliyimiz, birliyimizlə qalib gəlməliyik. Bunun üçün isə koronavirusun təhlükəli bir epidemiya olduğunu qəbul etmək və lazımi tədbirlərin həyata keçməsində bir-birimizə dəstək durmalıyıq.

■ **Kamal Cəfərov, millət vəkili:**

- Kimliyindən asılı olmayaraq hər kəs qanuna riayət etməli və qanun pozuntusuna isə yalnız hüquqi qiymət verilməlidir. Epidemiya insanların səbrini tükədib. Amma vətəndaş da qəbul edilən qaydalara əməl etməli, cərimədən



**Kamal Cəfərov,**
millət vəkili

yayınmaq üçün yox, sağlamlığını qorumaq, yaxınlarının və ictimaiyyətin ümumi rifahı naminə tibbi maska taxmalıdır. Ümumiyyətlə isə cəmiyyətdə qəribə inamsızlıq hissi var, baş infeksionist hələ mart ayında deyəndə ki, ölkədə hələ koronavirus yoxdur, hamı dedi ki, var, gizlədirlər. İndi deyir ki, koronavirus var, hamı deyir ki, uydurmadır. Dövlət koronavirusla mübarizəyə 3 milyard manata yaxın yardım vəsaiti ayırıb, deyirlər ki, yeni cərimə ilə büdcə gəlirlərini artırmaq istəyirlər. Belə nümunələr çoxdur.

Karantin dövründə həkimlərlə yanaşı ən çətin iş polislərin idi. Polis kifayət qədər peşəkar və səbrli xidmət göstərib. Elə ən çox riskə məruz qalan da polislər olub. Gecəsini gündüzünə qatıb, hamı kimi ailəsi ilə vaxt keçirmək əvəzinə ictimai aşayişi qoruyanda da Azərbaycan gəncləri, polisləri olub.

Hesab edirəm ki, bütün qanun pozuntularına yalnız hüquqi qiymət verilməlidir. Misal üçün Yasamal rayonunda gənc polisin Gülər xanıma qarşı işlətdiyi ifadələr etik davranış qaydalarına zidd idi. Hüquqi qiymət verildi. Daxili İşlər nazirinin əmri ilə daxili işlər orqanlarında xidmətdən xaric olundu. Əlbəttə, bu hüquqi proses davam edir. Misal üçün, Gülər xanım vəkillə təmin edilib, hüquqları müdafiə olunur, onun vəkilinin sözlərinə görə, yaxın günlərdə həbslə bağlı qərardan apelyasiya şikayəti veriləcək. Bütün bunlarla yanaşı düşünürəm ki, sonuncu 2 günlük sərt karantin dövründə ümumilikdə vətəndaşlarımız qanuna böyük hörmət nümayiş etdirdilər. Hər iki tərəf nümunəvi davranıb. Epizodik pozuntular da olub. Nəticə odur ki, vətəndaşa münasibətdə etik-davranış qaydalarını pozan polis də cəzalandı, qanunu pozan vətəndaş da. Belə hüquqi proseslər bütün hüquqi və demokratik dövlətlərdə baş verir.

■ **Naqif Həmzəyev, millət vəkili:**

- Azərbaycan polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət edib, ölkədə ictimai asayişin, təhlükəsizliyin mühafizəsi, əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirib. Azərbaycan polisinin böyük vətəndaşlıq məsuliyyətini, cəsarətini hər zaman yüksək qiymətləndirən Ulu öndərimiz Heydər Əliyev polisin Azərbaycan dövlətinin, xalqımızın keşiyində duran mübariz bir orqan olduğunu qeyd edib.

Koronavirus pandemiyasının bəşəriyyəti sınağa çəkdiyi günlərində, pandemiya dövründə fəaliyyəti ilə ən çox yadda qalan, nümunə sərgiləyən, vətəndaşın yanında olan peşə sahiblərindən biri də Azərbaycan polisi oldu.

Cəsarətli tibb işçilərimiz, könüllü gənclərimiz, hərbi qulluqçularımızla yanaşı polis əməkdaşları da fəalliyyətləri, nümunəvi davranışları ilə soydaşlarımızın təhlükəsizliyi keşiyində ayıq-sayıq dayandılar. Vətənimizin təhlükəsizliyi, insanların sağlamlığının qorunması naminə hər kəsin birlik olduğu, yenilməzlik nümayiş etdirdiyi zamanda Azərbaycan polisi fədakarlıq nümayiş etdirdi. Hər an koronavirusa yoluxma təhlükəsi ilə üz-üzə qalan şərəfli peşə sahibləri ciddi rejimdə tapşırıqlarının öhdəsindən layiqincə gəldilər. Onlar bu ağır, çətin günlərdə həyatlarını təhlükə altına alaraq, daim vətəndaşların təhlükəsizliyi keşiyində dayandılar.

Azərbaycan polisi yağışın, soyuğun, küləyin, qızmar günəşin yaratdığı narahatlıqlara məhəl qoymadan vəzifə borclarına sədaqət nümayiş etdirdilər.Yolda qalanın, yardıma ehtiyacı olanın, xəstə insanların ilk köməyinə çatan polislərimiz oldu. Onları əhalinin ən həssas təbəqəsinə zəruri ərzağın, xəstələrə tibbi ləvazimatların, dərmanların çatdırılmasında ön sıralarda gördük. Koronavirus pandemiyası ilə bağlı maarifləndirmə işlərində də polislərimizin fəaliyyəti əvəzsiz oldu. Polisin vətəndaşlarla kobud davranışının şahidi olduğumuz bəzi demokratik ölkələrdən fərqli olaraq Azərbaycan polisi bəzən vətəndaşlarımızın haqsız rəftarı qarşısında belə nəzakət nümayiş etdirdilər, yüksək peşəkarlıqla humanist mövqe sərgilədilər. Məhz bunun üçün hər bir vətəndaş onu qoruyan, onun təhlükəsizliyini təmin edən polis əməkdaşını gördükdə özünü güvəndə hiss edir.



**Naqif Həmzəyev,**
millət vəkili

✍ ***Azad***

# Ermənistan "Çıraqov və digərləri Ermənistana qarşı" adlı qərarın icrasına başlamalıdır

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb. XİN-dən hafta.az-a daxil olan bəyanatda deyilir: "Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanı nifrət nümayiş etdirən çıxışları ilə ittiham etməyə cəhd göstərən son açıqlamaları bu ölkənin beynəlxalq qurumların qəbul etdiyi qərarları özbaşına və seçilmiş şəkildə şərh etmək təcrübəsini bir daha üzə çıxarır.**



Ənənəvi əsassız iddialarını səsləndirməklə, Ermənistan beynəlxalq birliyi yanıltmaq və diqqəti öz irqçi siyasətindən və nifrət zəminində törətdiyi cinayətlərdən - Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonunun qeyri-qanuni hərbi işğalından və təcavüz zamanı yüz minlərlə azərbaycanlının insan hüquqlarının və əsas azadlıqlarının ciddi şəkildə pozulması faktından yayındırmaq məqsədi güdür. Azərbaycana qarşı müharibəni başlatdığına və beynəlxalq səviyyədə tanınmış ərazilərinin beşdə bir hissəsini zəbt etdiyinə görə tam məsuliyyət daşıyan, işğal olunmuş ərazilərdə etnik təmizləmə həyata keçirən, münaqişə zamanı digər ağır cinayətlər törədən, irqçi ideologiyanı müdafiə edən və BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrinə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına, habelə digər beynəlxalq təşkilatların qərar və sənədlərinə açıq-aşkar laqeydlik göstərən Ermənistan, özünün davamlı şəkildə pozduğu standartlar və dəyərlərlə başqalarını ittiham edə bilməz.

Ermənistan bütün qeyri-erməniləri, o cümlədən azərbaycanlıları ölkədən qovmaqla monoetnik ölkəyə çevrilmişdir. Ermənistan, etnik cəhətdən homogen ərazilər yaratmaqla bağlı eyni siyasət və təcrübəsini, bütün qeyri-ermənilərin qovulduğu və oyuncaq rejimini yaratdığı Azərbaycanın işğal edilmiş ərazilərinə də tətbiq edib.

Etnik və dini zəmində nifrət, düşmənçilik və dözümsüzlük Ermənistan siyasətinin əsasını təşkil edir və bu ölkə rəhbərliyinin ermənilərlə azərbaycanlılar arasında "etnik uyğunsuzluğa" aşkar inamının sübutudur. Beynəlxalq ictimaiyyət dəfələrlə Ermənistanın bu cür iyrənc fikirləri açıq şəkildə təbliğ etməsinə öz etirazını bildirmiş və Ermənistanda hökm sürən dözümsüzlük ruhu və bu ölkədə həyata keçirilən ayrı-seçkilik siyasəti və təcrübələri ilə bağlı ciddi narahatlığını ifadə etmişdir.

Ermənistan, insan hüquqları standartlarına və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına münasibətdə riyakarlıq və seçici yanaşmasına son qoymalı və eyni Məhkəmənin "Çıraqov və digərləri Ermənistana qarşı" adlı 16 iyun 2015-ci il tarixli qərarının icrasına başlamalıdır. Məlum olduğu kimi, Avropa Məhkəməsinin Böyük Palatası təqdim olunan sübutları araşdıraraq, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və digər işğal olunmuş əraziləri üzərində nəzarəti həyata keçirdiyini təsbit etmiş, Ermənistanın azərbaycanlı məcburi köçkünlərin hüquqlarının pozulmasına görə məsuliyyət daşıdığını bildirmiş və onların işğal olunmuş ərazilərdəki evlərinə və doğma yurdlarına qayıtmaq hüquqlarını bir daha təsdiq etmişdir.

Münaqişənin davam etməsinin və bunun nəticəsində bölgədə gərginliyin ara-sıra artmasının başlıca səbəbi Azərbaycan ərazilərinin qanunsuz işğalı və Ermənistanın bu vəziyyəti möhkəmləndirmək cəhdləridir. İlk növbədə Ermənistanın təcavüzünün nəticələri aradan qaldırıldıqdan sonra, yəni BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbinə uyğun olaraq Ermənistan silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılması, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa olunması və yüz minlərlə azərbaycanlı məcburi köçkünlərin insan hüquqları və əsas azadlıqlarının, o cümlədən onların evlərinə və mülklərinə geri qayıtmaq hüququnun təxirə salınmadan təmin edilməsindən sonra sülh, təhlükəsizlik və sabitliyə nail olmaq mümkündür".

✍ ***Hafta.az***

# Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır

əvvəli 1-ci səhifədə



Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək. Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerlərimiz var, reanimasiya şöbələrimizdə də həmçinin. Eyni zamanda, əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Ancaq biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin. Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, biz ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə yeni laboratoriyalar alınıbdır. Hazırda laboratoriyaların sayı 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə etmək üçün bizim ən qabaqcıl xəstəxanalar ayrılıb, onlara təqdim edilib, o cümlədən "Yeni klinika" - bizim ən gözəl, ən müasir xəstəxanamız və digər xəstəxanalar. Bu xəstəxanaların sayı 20-dən çoxdur. Eyni zamanda, hesab edirəm ki, karantin şəraitində qalan vətəndaşlar üçün də dünya miqyasında Azərbaycanda xüsusi şərait yaradılıb. Çünki onlar 4-5 ulduzlu otellərdə, eyni zamanda, Atletlər Kəndində yerləşdirilir və karantin rejimində olan ən çox insan Atletlər Kəndində yerləşdirilibdir. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir, təbii ki, qrafik üzrə. Orada da bütün işlər mütəşəkkil qaydada görülməlidir. Bildiyiniz kimi, xüsusi portal yaradılıb və Azərbaycana qayıtmaq istəyən vətəndaşlar o portalda qeydiyyatdan keçirlər, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər. Yəni, bütün şərait yaradılıb ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunsun. Hesab edirəm ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir. Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə və bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndirmişlər. Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda, məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunubdur və Azərbaycan burada da liderlik göstəribdir. Ümumiyyətlə, mübarizəyə və pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün işləri təşkil etmək üçün 3,5 milyard manat vəsait nəzərdə tutulubdur və bu vəsait xərclənir. Tibbi avadanlığın, dərman preparatlarının alınması - bütün bu işlərə dövlət böyük vəsait ayırdı.

Eyni zamanda, mən bu işləri təşkil edən qurumların fəaliyyətini də yüksək qiymətləndirirəm. Operativ Qərargah, İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB fəal işləyirlər. Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır.

Ona görə dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib. Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün bu günə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir. İnkişaf etmiş ölkələrlə digər müqayisəni də apara bilərəm. Məsələn, bir neçə inkişaf etmiş ölkə var ki, orada ölənlərin sayı bizdə yoluxanların sayından çoxdur. O inkişaf etmiş ölkələr ki, orada səhiyyə sistemi həmişə etalon, bir nümunə hesab edilib. Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, on minə yaxın insan ölüb. Bizdə isə sadəcə yoluxanların sayı 8 minə qədərdir. Ona görə bizdəki yanaşma, - hər bir yoluxmuş insana tibbi xidmət göstərilir, - ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaq.

Biz, eyni zamanda, sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda, Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir - ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb.

İndi bütün ölkələrdə yumşaldıcı addımlar atılır, o cümlədən Azərbaycanda. Buna baxmayaraq, mən onu da demişdim ki, əgər görsək xəstələrin sayı kəskin artır, yenə də məhdudlaşdıracağıq. Bu məhdudlaşdırıcı addımların səbəbi də bəllidir. Bəzi insanlar məsuliyyətsizlik göstərirlər. Ancaq bütövlükdə deyə bilərəm ki, Azərbaycan cəmiyyəti çox böyük məsuliyyət, nizam-intizam göstərir. Şənbə-bazar günlərində xüsusi karantin rejimi bunu göstərdi, qayda pozuntuları çox cüzi sayda olmuşdur. Bu, onu göstərir ki, vətəndaşlar məsuliyyəti dərk edirlər. Ancaq hər bir vətəndaş bunu dərk etməlidir. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risk altına ata bilir.

Koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Həkimlərin ümumi rəyinə görə, peyvənd icad olunana qədər insanlar bu xəstəlikdən əziyyət çəkəcəklər. Ona görə biz də hazır olmalıyıq ki, yeni davranış qaydaları çərçivəsində yaşayaq. İndi bunun başqa yolu yoxdur. Bir daha demək istəyirəm ki, bu davranış qaydaları insanlara o qədər də əziyyət vermir. Sadəcə dediyim qaydalara əməl etmək və daha məsuliyyətli olmaq lazımdır.

Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir. Bununla paralel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni, proqnozlaşdırılmış səviyyədədir. Ona görə bütövlükdə baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır. Artan dinamika, xəstələrin, yoluxanların artan dinamikası göstərir ki, yumşalma tendensiyası buna gətirib çıxarıb. Amma yenə də vəziyyət nəzarət altındadır. Burada əsas amil yoluxanların və sağalanların arasında olan nisbətdir. Bu günə qədər nisbət elədir ki, bizim səhiyyə sistemimiz bunu qəbul edə bilir. Bir çox ölkələrdə ölüm hallarının kütləvi xarakter almasının əsas səbəbi odur ki, o ölkələrdə səhiyyə sistemi çöküb. Yəni, xəstələri qəbul edə bilmirlər və beləliklə, kütləvi ölüm halları müşahidə edilir. Bu gün mövcud səhiyyə imkanlarımız bizə tam imkan verir ki, vəziyyət nəzarət altında qalsın. Ancaq hər kəs bilməlidir ki, bu vəziyyəti biz qorumalıyıq. Qorumalıyıq və müsbət meyillərin artırılmasına çalışmalıyıq və çalışırıq.

Beynəlxalq müstəvidəki rolumuza gəldikdə, bildiyiniz kimi, Azərbaycan özünü çox məsuliyyətli aparır. Mən qeyd etdim ki, ilk növbədə, ölkə daxilində və beynəlxalq arenada bizim təşəbbüsümüzlə iki Zirvə görüşü keçirilibdir: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Bildirməliyəm ki, Qoşulmama Hərəkatının Zirvə görüşündə 120 ölkə təmsil olunub, eyni zamanda, Afrika İttifaqı buna qoşulub, o İttifaqda 55 ölkə cəmləşibdir. Avropa İttifaqı ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə və ümumiyyətlə, ilk dəfə qoşulmuşdur. Avropa İttifaqında 27 ölkə var. Düzdür, Afrika İttifaqının bəzi ölkələri, eyni zamanda, Qoşulmama Hərəkatının üzvləridir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan, deyə bilərəm ki, tam məsuliyyətlə dünyanı birləşdirdi. Qəbul edilmiş bəyannamədə Azərbaycanın xüsusi rolu yüksək qiymətləndirilir. Əlbəttə ki, bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə də bu, növbəti bir töhfədir. Azərbaycan liderlik göstərib.

Eyni zamanda, biz Qoşulmama Hərəkatının üzvlərinə, ilk növbədə, müraciət edərək təklif etdik ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin. Bu dəstəyi biz aldıq, Qoşulmama Hərəkatının üzvləri bu təşəbbüsümüzü yekdilliklə dəstəklədilər və ondan sonra biz BMT Baş katibinə, - o, Qoşulmama Hərəkatının Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi, - müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda, bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək.

Çünki burada əsas məsələ özünə qapanmamaqdır. Biz yaxşı xatırlayırıq ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə də özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir. Bununla paralel olaraq, biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir. Bu 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir.

Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatına Azərbaycan fərdi qaydada iki dəfə ianə veribdir və beləliklə, Azərbaycan beynəlxalq təşkilat vasitəsilə 29 ölkəyə humanitar yardım göstərib. Mən indi bu məsələ ilə bağlı dünyada gedən prosesləri, mənzərəni izləyirəm və tam məsuliyyətlə deyə bilərəm ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bax, budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan bu bəla ilə təkbaşına, bu cür, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin. Hələ bəlkə 10 il, 20 il bundan əvvəl kimin ağlına gələrdi ki, Azərbaycan 30-a yaxın ölkəyə humanitar yardım göstərə bilər. O dövrdəki bəzi ölkələr indi o biri ölkələrə çatacaq humanitar yardımı da özlərinə, necə deyərlər, götürmüşdülər. Ona görə biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq. Ona görə bizə olan rəğbət və hörmət gündən-günə artır.

Bütün bu məsələlərlə yanaşı, bir daha bundan sonrakı dövrə qayıtmaq istəyirəm. Azərbaycan vətəndaşları bizim bütün addımlarımızı dəstəkləyirlər. Halbuki aydın məsələdir ki, pandemiya insanların normal həyat tərzinə təsir edib, mənfi təsir edib. İnsanlar öyrəşdikləri həyat tərzindən müəyyən dərəcədə uzaqlaşıblar. Məhdudiyyətlər var, eyni zamanda, artıq yeni məhdudiyyətlər də ortaya qoyulur. Ancaq Azərbaycan vətəndaşları bilirlər ki, bu məhdudiyyətlərin əsas səbəbi insanları qorumaqdır. İnsanları qorumaq üçün biz bütün addımları atacağıq. Ona görə bir daha Azərbaycan vətəndaşlarına bu dövr ərzində göstərdiyi dəstəyə görə, göstərdiyi həmrəyliyə görə təşəkkür edirəm. Eyni zamanda, bütün vətəndaşları bir daha böyük məsuliyyətə və nizam-intizama çağırıram. Biz birlik nümayiş etdirmişik və bundan sonra da nümayiş etdirəcəyik. Təsadüfi deyil ki, pandemiya dövründə "Biz birlikdə güclüyük!" birləşdirici şüar olmuşdur.

**TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı dedi:**

Ramin Bayramlı: Cənab Prezident, digər modul xəstəxanaların açılışında iştirak edən tibbi heyətlər videokonfransla bizə qoşulublar. Sumqayıt 1 saylı şəhər xəstəxanasından həkim Şəhla Hacıyeva, buyurun.

**Şəhla Hacıyeva:** Möhtərəm cənab Prezident və dəyərli Mehriban xanım.

Əvvəlcə Sizi salamlayırıq. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə çox təşəkkür edirik.

Üç aydan çoxdur ki, biz amansız düşmənlə mübarizə aparırıq. Bu düşmənin gözəgörünməz olması bir çoxlarında elə bir təəssürat yaradır ki, o yoxdur. Bununla da onlar özlərinin və yaxınlarının sağlamlığını təhlükə altına atırlar. Bu ağır günlərdə Sumqayıt şəhərində müasir avadanlıqlarla təchiz olunmuş modul tipli xəstəxananın yaradılması əlamətdar hadisədir. Biz Azərbaycan həkimləri bütün həmkarlarımızla birlikdə bu mübarizəyə qoşulmuşuq. Bütün dünyada olduğu kimi, sağalmış xəstələrdən alınmış plazmanı ağır xəstələrin müalicəsində uğurla tətbiq edirik. Fürsətdən istifadə edərək Sizin köməyinizlə sağalmış xəstələrə müraciət edirik ki, öz plazmalarını bəxş etsinlər və sözün əsl mənasında, həyat qurtarsınlar.

Sizin və çox hörmətli Mehriban xanımın koronavirusla mübarizə tədbirlərini şəxsi nəzarətinizdə saxlamağınız və düzgün istiqamət verməyiniz sayəsində biz Azərbaycan həkimləri tezliklə bu mübarizədən qalib çıxacağımıza inanırıq. Sizə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun. Bilirsiniz ki, Sumqayıt şəhərinə mən daim böyük diqqət göstərirəm və Prezident kimi dəfələrlə Sumqayıtda olmuşam, orta hesabla minimum ildə iki dəfə, bəzi illərdə daha da çox. Sumqayıtın sənaye potensialının inkişafı bu gün göz qabağındadır. Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və eyni zamanda, müasir sənaye şəhəridir. Çünki bildiyiniz kimi, - yaşlı nəsil bunu yaxşı bilir, - əvvəlki dövrdə Sumqayıtda çox çətin ekoloji vəziyyət mövcud idi. Bu gün yeni istifadəyə verilmiş bütün müəssisələr yüz faiz ekoloji standartlara cavab verir. Buna görə Sumqayıtda indi ekoloji vəziyyət çox yaxşılaşıb və hava da təmizdir. Sumqayıt bu gün parklar, bağlar şəhəridir, yaşıllaşdırma işləri gedir. İndi insanları narahat edən və ekoloji problem yaradan Acıdərə kanalı da təmizlənir. Buraya da böyük vəsait ayrılır. Bununla paralel olaraq, şəhər infrastrukturu yeniləşir, o cümlədən sosial obyektlər inşa edilir. 1 saylı şəhər xəstəxanasının əsaslı təmirindən sonra əlbəttə ki, vəziyyət daha da yaxşılaşıb.

Mənim göstərişimlə hazırda 2 saylı xəstəxananın tikintisi gedir. İlkin mərhələdə belə təklif olundu ki, o təmir edilsin. Amma sonra mənə verilən məlumata görə, bu, mümkünsüz olub və demək olar ki, xəstəxana yenidən tikiləcək. Bu, bir daha onu göstərir ki, vaxtında görülmüş işlər ən böhranlı dövrdə bizə lazım ola bilər. Bildiyiniz kimi, bütün ölkə üzrə yeni xəstəxanaların tikintisi demək olar ki, başa çatır, bəlkə bir, ya iki şəhərdə hələ ki, istifadəyə verilməyib, amma o da nəzərdə tutulur. Beləliklə, ölkəmizin hər bir şəhərində müasir tibb müəssisəsi var, özü də mərkəzi rayon xəstəxanası səviyyəsində, eyni zamanda, 20-yə yaxın müalicə-diaqnostika mərkəzi. İlk növbədə, əgər bu infrastruktur olmasaydı, biz indi icbari tibbi sığorta sisteminə keçə bilməzdik. Çünki bunun əsas şərti mövcud infrastrukturun müasir səviyyədə olmasıdır.

Bildiyiniz kimi, biz bu ilin əvvəlindən ölkə üzrə tam icbari tibbi sığortaya keçməli idik, ancaq pandemiya planlarımıza müdaxilə etdi. Biz indi bir neçə pilot layihəni icra edərək gördük ki, bunun üstünlüyü nədən ibarətdir və vətəndaşlar da gördü. Ona görə gələn ilin əvvəlindən artıq ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulur. Bir daha demək istəyirəm ki, əgər biz bu tibb ocaqlarını vaxtında tikməsəydik, indi xəstələri müalicə etmək mümkün olmazdı. Baxın, indi 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə olunur, bölgələrdə yeni tikilmiş bütün xəstəxanalarda. Əgər bu olmasaydı, harada müalicə olunacaqdı? Bakı şəhərində ən çox harada müalicə olunur: Tibb Universitetinin Cərrahiyyə Klinikasında və Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında. Ən çox müalicə olunan xəstələr oradadır. Yeni klinikada 575 çarpayı mövcuddur. Bizim digər təmir edilmiş, yaxud da yenidən tikilmiş klinikalardır və bütün klinikalar tibbi avadanlıqla təmin olunub. Son illərin istehsalı, aparıcı şirkətlərin istehsalı olan avadanlıq bizə imkan verir ki, istənilən xəstənin müalicəsini təmin edək. Ona görə, bax, bu görülmüş işlərdir və son 16 il ərzində bütövlükdə 700-dən çox tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Bu güclü sosial səhiyyə infrastrukturu bizə imkan verdi ki, bu vəziyyətdən də şərəflə çıxaq. Biz iki min əlavə çarpayını ona görə yaradırıq ki, bu, bir ehtiyat olsun, Allah eləməsin, bu xəstəlik daha geniş yayılsa, bizim imkanımız olsun. Lazım olarsa, əlavə 10 xəstəxana da tikərik. Yəni, bu məqsədlər üçün biz istənilən vəsaiti tapa bilərik və tapırıq.

Bu dövr ərzində bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq arenada siyasi cəhətdən özünü güclü dövlət kimi göstərdi, iqtisadi sahədə güclü dövlət kimi göstərdi, sosial sahədə güclü dövlət kimi göstərdi. Göstərdi ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Onu da bildirməliyəm ki, bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, biz kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə. Ona görə bütün parametrlər üzrə Azərbaycan liderlik göstərib. Bu liderlik artıq regionumuzun çərçivələrindən çoxdan çıxıb.

Saray qəsəbəsində işləyən həkimlər, buyurun.

**Həkim Nərmin Verdiyeva:** Hörmətli cənab Prezident və çox dəyərli Mehriban xanım.

Öncə bütün Azərbaycan həkimləri adından bizə göstərdiyiniz qayğı və yaratdığınız şərait üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Artıq hər birimiz bilirik ki, bütün dünya ölkələri kimi, Azərbaycan da koronavirus pandemiyası ilə mübarizə aparır. Ölkəmizin bir sıra tibb müəssisələrində koronavirus pandemiyası ilə mübarizə aparmaq məqsədilə xüsusi şərait yaradılmışdır, xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş, dərman preparatları ilə təmin olunmuşdur. Modul tipli xəstəxanalar da məhz bu xəstəxanalardandır. Sizin təşəbbüsünüzlə inşa edilmiş və ən qısa zamanda biz həkimlərin ixtiyarına verilən modul tipli xəstəxanalar həm bugünkü vəziyyətdə, həm də gələcəkdə bir sıra xəstəliklərlə mübarizə apararkən təcili və təxirəsalınmaz tibbi yardımlar göstərmək üçün biz həkimlərə geniş imkanlar yaradıb. Sizin də qeyd etdiyiniz kimi, koronaviruslu xəstələrlə çalışarkən biz xüsusi fərdi kostyumlardan istifadə edirik. Yay fəslinin gəlməsi, havaların isinməsi bu kostyumlarda çalışmağı bir az çətinləşdirir. Lakin əmin ola bilərsiniz ki, bütün bu çətinliklərə baxmayaraq, Sizin dəstəyinizlə biz gecə-gündüz çalışaraq pandemiya ilə mübarizə aparıb, bu çətin sınaqdan ən uğurlu şəkildə çıxacağıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən bir daha həkimlərin fəaliyyətini qiymətləndirmək istərdim. Mən, Azərbaycan dövləti, Azərbaycan xalqı bu dövrdə gördülər ki, həkimlər içdikləri Hippokrat andına sadiqdir, öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Həkimlərin arasında yoluxanlar da var və onlar öz həyatını risk altına ataraq xəstələri müalicə edir, onları həyata qaytarırlar. Təsadüfi deyil ki, mənim təşəbbüsümlə ölkəmizin və şəhərimizin yeni simvollarından biri olan Alov Qüllələrində məşhur şüar əks olunmuşdur: Azərbaycan həkimlərinə eşq olsun!

Bir daha bunu demək istəyirəm, Azərbaycan həkimlərinə eşq olsun və ayaq üstə Azərbaycan həkimlərini alqışlamaq istəyirəm. Sağ olun.

# “Azərbaycanla səhiyyə və biotexnologiya sahəsində əməkdaşlığa hazırıq”

***Dünya ölkələri əsirinə çevrildikləri koronavirus pandemiyasından qurtulmaq üçün mübarizə aparır, çox böyük itkilər versələr də, bu dəhşətli bəladan xilas olacaqlarına inanırlar. Amma bir məsələ var ki, əhalisinin sayına, maddi-texniki-iqtisadi qüdrətindən asılı olaraq, ölkələrin hamısı virusla mübarizədə eyni nəticəni əldə edə bilmirlər. Qəribədir ki, bu müstəvidə bütün bərabərsizliklərə rəğmən təsadüflər və ya möcüzələr biz insanları heyrətləndirir.***



**Alfredo Nieves Portuondo,**
Kubanın ölkəmizdəki səfiri

Fikir verin: istədiyi ölkəyə sanksiyalar tətbiq edərək çökdürməyə çalışan ABŞ bu gün pandemiyanın mərkəzinə çevrilib, 2 milyondan artıq amerikalı virusa yoluxub, ölənlərin sayı isə 115 minə yaxınlaşır. ABŞ-ın uzun illərdir sanksiyalar tətbiq edərək, mühasirədə saxladığı, inkişafına hər cür maneələr yaratdığı Kubada həm yoluxma sayır, həm də ölüm faktı çox aşağıdır. Üstəlik, virusa yoluxmuş, təxminən, 2,2 min insanın 90 faizə qədəri sağalıb evinə qayıdıb. Maraqlıdır, embarqolar şəraitində Kuba xalqı və dövləti belə böyük gücü necə əldə edib? Kubanın ölkəmizdəki səfiri Alfredo Nieves Portuondo ilə söhbətləşərək bu suallara cavab almağa çalışdıq. Əziz oxucular, gəlin cənab səfirin dediklərini birlikdə oxuyub, öyrənək:

- Bütün dünya üçün, xüsusilə də soyqırımı blokadası şəraitində yaşayan bir xalq üçün çətin olan bu aylarda ABŞ istənilən növ ticarətin həyata keçirilməsinə mane olmaqla yanaşı, Kubanın Vaşinqtondakı səfirliyinə edilən terror hücumunu ilə bağlı nə bir məlumat paylaşdı, nə də beynəlxalq hüquqda müəyyən olunmuş formada hərəkət etdi, əksinə, Kubanı terrorçuluqla mübarizədə əməkdaşlıq etməyən saxta xalqlarla bir sıraya qoydu. Venesueladan gələn yanacaq gəmilərini təqib etməklə artan kinini və qəzəbini göstərdi, bundan əlavə, mövcud və potensial sərmayəçilərə, habelə Kuba qurumlarına qarşı yeni sanksiyalar tətbiq etdi. Kubanın beynəlxalq əməkdaşlığına hücum edən ABŞ hökuməti hesab edir ki, 110 mindən çox vətəndaşının ölümü məqbuldur.

***- Ümymdünya Səhiyyə Təşkilatının saytına baxıram, Kubanın pandemik vəziyyəti o qədər də qorxulu deyil: təxminən, 2200 yoluxma sayı, 83 ölüm faktı... Bütün latın Amerikası və Şimali Amerika ölkələri ilə müqayisədə ən uğurlu vəziyyətdir. Necə qoruya bildiniz adanı ölümcül virusdan?***

- Kubada 11 mart tarixində ilk yoluxma halları qeydə alınanda, Ümumdünya Səhiyyə Təşkilatının protokollarına və müsbət təcrübəsinə uyğun hazırlanmış Milli Tədbirlər Planı artıq tətbiq edilirdi. Bu plana davamlı riayət edilməsi adada epidemioloji nəzarəti gücləndirmək, erkən diaqnostikanı təmin etmək və yoluxanların vaxtında müalicə olunmasına imkan yaratdı. Onun tətbiqi ödənişsiz səhiyyə sistemi ilə dəstəklənir. Göstəricilərə əsasən hər 1000 nəfərə 9 həkim düşür ki, bu da əhalinin 100 faizinin əhatə olunması deməkdir. Bundan əlavə, xəstəliyin müalicəsi üçün effektiv olan interferon alfa 2B, monoklonal antikorlar, CIGB 258 peptid və Surfacen kimi yeni preparatların istehsal edildiyi tibbi-əczaçılıq və biotexnologiya sənayemiz mövcuddur. Bütün bu sadalananların sayəsində ölkəmiz üzləşdiyimiz pandemiyayla mübarizədə müsbət nəticələr əldə etməyə nail oldu. Ölkədə ümumilikdə 114 464 sayda test həyata keçirilib, bunlardan 2133-nün nəticəsi müsbət çıxıb. Hər təsdiqlənən yoluxma halında xəstənin ünsiyyətdə olduğu şəxsləri müəyyən etmək və onun yoluxma mənbəyini aşkarlamaq üçün daimi iş aparılır ki, indiyə kimi yoluxanların cəmi 2,9 faizində, yəni 62 nəfərdə, yoluxma mənbəyi müəyyən edilə bilinməyib. Bu, müxtəlif qruplar tərəfindən aparılan epidemioloji araşdırmaları daha da genişləndirmək üçün həyata keçirilən işin əsasını təşkil edir.

Məhz bu, xəstəliyin otürülmə mexanizmini dayandırmağa imkan verir. Kubada COVİD-19-a yoluxması təsdiqlənən xəstələrin 87,1 faizi sağalıb. Baxmayaraq ki, rəqəmlər ümidvericidir, ölkəmiz pandemiyaya qarşı mübarizəni daha da gücləndirir. Digər tərəfdən, səhiyyə sistemi və kubalı alimlərin səyi nəticəsində xəstələrdə ağırlaşma hallarının sayının minimuma endirilməsinə imkan yaradır. Adada koronavirusa yoluxanların ölüm hallarının nisbəti 3,77 faiz təşkil edir və ardıcıl olaraq doqquz gündür ki, bu virusla bağlı heç bir ölüm faktı qeydə alınmayıb.

***- Yoluxanların, hətta ölənlərin də, yaş həddinə əsasən təxmini statistika verə bilərsinizmi? Məsələn, konkret Kubada yoluxma daha çox hansı yaş həddində olanlar arasında daha çoxdur...***

- Bütün əhalimizin təhlükəsizliyi təmin etmək üçün səylərimiz davam edir. Yoluxan xəstələrin əksəriyyəti 50 yaşından yuxarı olanlardır. Səhiyyə sisteminin nailiyyətləri, xəstələrə, xüsusən də ağır halda olanlara göstərilən tibbi xidmətdə tətbiq edilən protokollar, həmçinin alimlərin səyləri və bir qrup dərman preparatlarının birlikdə istifadəsi ilə müsbət nəticələr əldə edilir. Nə qədər mümkünsüz görünsə də, xəstələrdə ağırlaşmaların sayını azaltmağa müvəffəq olmuşuq. Ölkədə virusa yoluxan 2200 nəfərdən 1868-i artıq təhlükədə deyil. Bir sözlə, səhiyyə sistemi və hökumətimiz tərəfindən görülən tədbirlər və vaxtında atılan addımlar ölkəmizin COVİD-19-la mübarizədə müsbət nəticələr əldə etməsinə imkan verib.

***- Hər kəsə gün kimi aydındır ki, Kuba dünyanın əsas dərman istehsalçılarındandır. Özü də ən ağır, başqa ölkələri çətin vəziyyətə salan xəstəliklərin müalicəsində istifadə edilən dərmanları istehsal edirsiniz. Maraqlıdır, dünyanı əsirə çevirən koronavirusa qarşı vaksin hazırlamaq yönümündə addımlar atırmı kubalı alimlər və atıbsa nələri müsal çəkə bilərsiniz?***

- Kuba elmi və alimləri koronavirusla mübarizədə mühüm rol oynayır. Virusun müalicəsində istifadə edilən əsas dərman preparatlarından 17-si ölkədə istehsal olunur. Hazırda 70-dən çox tədqiqat və klinik sınaq həyata keçirilir. BioCubaFarma-nın bir qrup alimi epidemiyaya qarşı mübarizə aparmaq üçün plan hazırlayıb.

Bu plana dərman preparatlarının təchizatı, yeni məhsulların hazırlanması üçün araşdırmaların aparılması və bu virusdan əziyyət çəkən digər ölkələrlə əməkdaşlıq fəaliyyəti daxildir. Yeni tətbiq edilən dərman preparatları virusla mübarizədə müsbət təsirini göstərən “Biomodulin t”, “Transfer Factor”, “cigb 258 peptid” və “Itolizumab”dır. Eyni zamanda, Kubada peyvəndin hazırlanması üçün fasiləsiz olaraq işlər davam edir. Bundan əlavə, tibbi maskalar, hidroalkolik gel və məhlulları, əllərin dezinfeksiyası üçün ozon və plasenta sabunları, fərdi mühafizə vasitələri, habelə süni ağciyər ventilyasiya aparatlarının istehsalı bu şirkət üçün hal-hazırda prioritet təşkil edir.

***- Yuxarıda qeyd etdik ki, Kuba uzun illərdir sanksiyalar şəraitində yaşayır. Bu çətin pandemik dövrdə xarici ölkələrlə necə əlaqə saxlaya bilirsiniz, ümumiyyətlə, xarici ölkələrdən hansılar Kubaya dərman və sair formada dəstək olub koronavirusla mübarizədə, yaxud da Kuba hansı ölkəyə yardım göstərib? Birini mən deyim: Ekvadora 100-dək həkim və tibb bacılarından ibarət, üstəlik yanlarında da dərman və lazımi tibbi vasitələrlə birlikdə təyyarə göndərmisiniz...***

- COVİD-19-un yaratdığı qlobal böhran qarşısında əməkdaşlıq və həmrəylik böyük əhəmiyyət kəsb edir. Xalqımızı qorumaq üçün məsuliyyət hissinə bir an belə laqeyd yanaşmadan, İnqilabımızın rəmzi olan həmrəylik hissindən uzaqlaşmamışıq. Hazırda Henry Reeve Contingent-in 2300-dən çox əməkdaşı ümumilikdə 26 tibbi briqadaya bölünərək bu xəstəliyə qarşı mübarizə aparmaq üçün 24 ölkədə fəaliyyət göstərir. Bundan başqa, 59 ölkədə fəaliyyət göstərən 28 mindən çox tibb işçisini də qeyd etmək lazımdır. Bu tibbi briqadaların fəaliyyətinin nəticəsi kimi bu günədək 61200-dən çox xəstə müalicə alıb. Kubalı tibb işçilərinin peşəkarlığını və nüfuzu bütün dünya tərəfindən tanınır. Nə Amerika Birləşmiş Ştatları hökuməti tərəfindən Kubaya qarşı tətbiq edilən və qəddarcasına sərtləşdirilən soyqırım blokadası, nə də bu ölkənin administrasiyasının Kubanın səhiyyə sahəsindəki beynəlxalq əməkdaşlığını nüfuzdan salmaq və ona əngəl törətmək üçün cəhdləri bu həmrəylik jestinə mane ola biləcək. Heç bir ölkə təkbaşına bu pandemiya ilə üzləşə bilməz, birlik, həmrəylik və çoxtərəfli əməkdaşlığa əsaslanan qlobal cavab tələb olunur. ABŞ tərəfindən blokadanın sərtləşməsi fonunda sağlamlığın zəmanəti üçün texnoloji suverenlik ən zəruri amil rolunu oynadı.

***- Karantin dövründə Kubada qalan əcnəbilərin ölkələrinə göndərilməsi və ya xaricdəki kubalıların vətənə gətirilməsi prosesi necə gedib? Hazırda Kubada əcnəbilər qalıbmı və qalıbsa, aralarında virusa yoluxan olarsa, Kuba dövləti onları da öz vətəndaşları kimi müalicə edirmi?***

- Kuba və digər ölkələrin hakimiyyət orqanları arasında aparılan uğurlu koordinasiya sayəsində Kuba vətəndaşlarının və eyni zamanda, Kubada və xarici ölkələrdə qalan əcnəbilərin də öz ölkələrinə geri qayıtmasına nail olundu. Bunun üçün bir çox hava yolu şirkətləri Havana və müxtəlif paytaxt şəhəri arasında çarter uçuşlarının təşkil edilməsi üçün hava gəmiləri ilə təmin etdilər. Bu, kömək üçün müraciət edən və xaricdə yerləşən konsulluqlarımız tərəfindən qeydə alınan yüzlərlə həmvətənimizin Kubaya geri qayıtmasına imkan yaratdı. Eyni zamanda, adanı ziyarətə gələn turistlər də öz ölkələrinə geri qayıtdılar. İndiyədək hökumətimiz və qarşı tərəflərin hökumətlərinin səyləri nəticəsində təşkil edilən humanitar uçuşlar vasitəsilə COVİD-19 ucbatından 35 ölkədə qalan 3500-dən çox kubalı vətəninə qayıda bilib.

***- İndiki şəraitdə Kuba ilə Azərbaycan arasında əlaqələr necədir, ölkələrimiz bir-birinə konkret nəsə dəstək veribmi?***

- Biz Azərbaycanla səhiyyə və biotexnologiya sahəsində əməkdaşlığa hazırıq. Ortaq cəhətlərimiz çoxdur. COVİD-19 sərhədləri tanımayan, ideologiya və ya inkişaf səviyyələri arasında fərq qoymayan qlobal bir çağırışdır. Bütün dünyada səhiyyə sistemlərini və epidemioloji hadisələrlə üzləşmək qabiliyyətini sınağa çəkib. Kuba və Azərbaycan birlikdə əməkdaşlıq edə bilərlər. Qoşulmama Ölkələri Hərəkatının hazırki sədri qismində Azərbaycan tərəfinin təşəbbüsü ilə çağırılan ”COVID-ə qarşı Birlikdəyik” mövzulu Virtual Zirvə görüşündə Kuba prezidenti Migel Diaz-Kanel Bermudes də iştirak etmişdi. Dövlətimiz Ümumdünya Səhiyyə Təşkilatına dəstək, COVİD-19-la bağlı qəbul edilən və qlobal birlik, həmrəylik, beynəlxalq əməkdaşlığın təşviq olunduğu, siyasi fərqləri aradan qaldırmağa, Beynəlxalq Hüququ və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini pozan və Dövlətlərin pandemiyaya qarşı səmərəli şəkildə mübarizə aparmaq imkanlarını məhdudlaşdıran birtərəfli məcburedici sanksiyaları dayandırmağa səsləyən Bəyannamələrin qədul edilməsini dəstəkləyir.

***- Kubanın ölkəmizdəki təmsilçisi olaraq, ölkəniz və şəxsiniz adından deyə bilərsinizmi, dünyada pandemiya vəziyyəti təxminən nə zaman başa çatacaq?***

- Kuba Ümumdünya Səhiyyə Təşkilatına və ona üzv ölkələrə əməkdaşlıq etməyə, təcrübəsini bölüşməyə hazır olduğunu bir daha ifadə edir. Hesab edirəm ki, arxayınlaşmamaq və sanitar normalara riayət etmək indiki vaxtda çox zəruridir. COVİD-19 pandemiyasının bitəcəyi tarixə dair təxminlər səsləndirmək və hər hansı ümid vermək doğru olmazdı. Hadisələrə real yanaşmaq lazımdır. Hazırda, bu virusun nə vaxt yoxa çıxacağını heç kim deyə bilməz.

***✍ Vüsal Tağıbəyli***

# İnsanlar bu virusdan əzablı şəkildə ölürsə, deməli, xəstəlik var

**“İyul-avqust aylarında virusa yoluxan insanların konsentrasiyası yüksək olacaq. Bu virus da ultrabənövşəyi şüaların təsirindən tez ölür. Faktiki olaraq ağacda, torpaqda, əşyaların üzərində virus qalmayacaq. Virus ancaq insanlarda mövcud olacaq.**

Mənə elə gəlir ki, iyul ayını və avqust ayının ortalarına qədər qapalı karantin rejimi tətbiq etmək lazımdır. O zaman bizdə xəstə qalmayacaq. Bizdə xəstə sayı sıfır olarsa, ikinci dalğa gəlməyəcək. İkinci dalğa havalar soyuyanda gələ bilər. Bizdə də adətən, havalar dekabr ayında soyuyur”.

■ **Bunu hafta.az-a açıqlamasında tibb üzrə fəlsəfə doktoru, Biləcəri Mərkəzi Dəmiryolu xəstəxanasında Qanın Təmizlənməsi Şöbəsinin müdiri Bəhruz Hüseynov deyib. Ekspert bildirib ki, bir sıra ölkələrdə ikinci dalğa gəlməyəcək:** “Məsələn, Gürcüstanda ikinci dalğa gəlməyəcək. Bu ölkədə xəstə sayı yoxdur. Koronavirus isə insandan-insana keçir. Onsuz da bu virus 14 günə çıxıb gedir. Əgər insanlar arasında yayılmasa, eləcə də xaricdən də daşıyıcılar gəlməsə, virusun kökü tamamilə kəsilər. İkinci dalğa da olmaz. Etirazlara baxmayaraq, karantin rejimini kəskinləşdirmək lazımdır. İyul ayında total karantin rejimi tətbiq etmək lazımdır. Üç gün karantin rejimi eləmişdilər, o cür rejim tətbiq olunmalıdır. Heç kim evindən çıxmamalıdır. Ciddi karantin rejimi tətbiq olunsa, insanlar arasında yayılmayacaq. Bakı və Abşeron yarımadası ultrabənövşəyi şüalarla zəngindir. Ona görə də səthdə, əşyaların üzərində virus qalmayacaq. Bütün xəstələr sağaldıqdan sonra təhlükə tamamilə sovuşacaq”.

Şöbə müdiri onu da əlavə edib ki, iki-üç ay əhalini çölə buraxmamaq lazımdır: “Bu virus insandan-insana yoluxur. Virus özü cansızdır. Orqanizmə düşdükdə canlanır. Bu, çox zəif bir virusdur. Adi sabun köpüyündə 20-30 saniyəyə ölür. Spirt tozunda qısa müddətdə məhv olur. Ultravioletdə cəmi 16 saniyəyə məhv olur. Bir neçə gün öncə Sumqayıta getmişdim. Dayanacaqda durub saydım, avtobusa 19 nəfər mindi. Heç birində tibbi maska yox idi. Oturanlar da, ayaqüstə duranlar da ağız-ağıza, üz-üzə dayanmışdılar. Ara məsafəsinə fikir vermirdilər. Xəstəliklə bu cür mübarizə aparmaq olmaz. İlk günlərdə cəmi 30-40 nəfər idi yoluxanların sayı. Demək olar ki, kökü kəsilmişdi. Karantin rejimini çox tez yumşaltdılar. Gərək bunu etməyəydilər. Azərbaycanlılar deyir ki, bu siyasətdir. Xeyr, siyasət deyil, xəstəlikdir. Biz siyasətçi deyilik, həkimik. Arxasında siyasət dayana bilər, amma COVİD-19 xəstəlikdir. Virus, törədici varsa, insanlar bu virusdan ölürsə, özü də əzablı ölürsə, deməli, xəstəlik var”.



Koronavirusdan qorunmağın yollarından danışan Bəhruz Hüseynovun sözlərinə görə, insanlar ara məsafəsi saxlamalıdırlar. Kafe və restoranlarda araq-pivə içməməlidirlər. Evdən bayıra çıxmamalıdırlar. Tibbi maskadan istifadə etməlidirlər. Anlamalıdırlar ki, evdən çıxdığın andan etibarən virusa yoluxma riski artır. Axşam bu insanlar evə qayıdacaqlar. Ailələrini, doğmalarını, evlərindəki yaşlı insanları yoluxdura bilərlər.

Eyni zamanda bir metod var, qanın ultrabənövşəyi şüalanması. TƏBİB cəmiyyəti bununla bağlı işlər görməlidir. Xaricdə də müzakirə olunur. Xüsusi optik liflər var ki, onlar damara salınır. Buna da ultra-bənövşəyi şüalar deyilir. Həmin ultraviolet bütün virusları öldürür. Bunu praktiki müalicədə tətbiq etmək lazımdır”.

***✍ Tural***

## GÜNÜN TƏZADLARI

### Bakıda falçı qadının 400 minə yaxın pulunu “yedi”



■ **Fala baxmaq adı ilə külli miqdarda dələduzluq etməkdə təqsirləndirilən ər-arvad barəsində seçilmiş qətimkan tədbirinin uzadılması ilə bağlı təqdimata baxıldı.** Hafta.az-ın yazdığına görə, təqdimata Nərimanov Rayon Məhkəməsində hakim Samir Məmmədovun sədrliyi ilə baxılıb. Qeyd edək ki, 1989-cu il təvəllüdlü Ceyhun Şahin oğlu Zeynallı və onun həyat yoldaşı olmuş İsmiyeva Şəfəq Müslüm qızı barəsində vətəndaş Rəna Ağarzayevanın şikayəti əsasında Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində cinayət işi başlanıb. Məhkəmənin qərarı ilə C.Zeynallı barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. İttihama görə, İsmiyeva Şəfəq Müslüm qızı etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin külli miqdarda əmlakını ələ keçirmək məqsədilə əri Zeynallı Ceyhun Şahin oğlu ilə cinayət əlaqsəsinə girib, 2017-i ilin əvvəllərində ”İnstagram” sosial şəbkəsində ”baxıcı” adlı səhifə açıb. O özünü “Maya”, əri Ceyhun Zeynallını isə Rusiya Federasiyasında yaşayan “Dmitri” adlı baxıcı kimi təqdim edib. Kart vasitsilə fala baxdığını və qadınların gələcək taleyi ilə bağlı proqnozlar verə bildiyini söyləməklə ona müraciət edən qadınların etibarını qazanıb. Şəfəq İsmiyeva ona müraciət edən R.Ağarzayevanın qız övladının öləcəyi, bəxtinin bağlanması ilə bağlı cadu edildiyini bildirərək daha yüksək gəlir əldə etmək məqsədilə Rusiya Federasiyasında yaşayan ”Dmitri” adlı baxıcının da köməyindən istifadə olunacağını bildirib. Ona yalan vəd verməklə aldadaraq 2017-ci ilin ortalarından 2020-ci ilin əvvələrinə kimi 397 min manat pulunu mənimsəyib. Hər iki şəxsə Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq) maddəsi ilə ittiham verilib.

### Reanimasiyadakı xəstə yerindən qalxaraq iki nəfəri yaraladı



■ **Rusiyanın Sankt-Peterburq şəhərindəki xəstəxanaların birində reanimasiya şöbəsinin pasiyenti cərrah iynəsi ilə iki nəfəri yaraladı.** Hafta.az xəbər verir ki, məlumata görə, hər iki zərərçəkən qadındır. Bildirilir ki, 42 yaşlı kişi ezofaqal varikoz qanaxması ilə reanimasiya şöbəsinə yerləşdirilib. Onda qəfil kəskin psixoz vəziyyəti yaranıb: xəstə yatağından qalxaraq tibbi aləti əlinə götürüb və yaxınlıqda olan iki xəstəni yaralayıb. Tibb işçilərinin sözlərinə görə, yaralar səthi xarakter daşıyır. Aqressiv pasiyent isə psixiatr yoxlamasından keçib. Hazırda o, reanimasiyada müalicə almağa davam edir. Polis baş verənlərlə əlaqədar yoxlamalara başlayıb.

### “Kəlbəcər” qızıl şaxtasında 3 erməni öldü



■ **Ermənistanın Kotayk mərzinin Meqradzor (əsl adı: Tayçarıq) kəndi yaxınlığında yerləşən “Megradzor Gold” şirkətinə məxsus mədəndə zəhərlənən və ölənlər oldu.**

Hafta.az xəbər verir ki, işğalçı ölkənin Shamshyan.com saytının məlumatına görə, 10 iyuna keçən gecə saat 00:40 radələrində Razdan Tibb Mərkəzindən Razdan Polis Şöbəsinə bir qrup vətəndaşın ”kəskin ekzogen mineral qazdan zəhərlənmə” diaqnozu ilə mərkəzə çatdırıldığı bildirilib. Polis Meqradzor kənd sakinləri - 28 yaşlı Vahan Yepremyan, 30 yaşlı Saak Saakyan, 36 yaşlı Ağasi Qazaryan, 34 yaşlı Gehem Xaçatryan, 53 yaşlı Gevorg Yepremyan və 42 yaşlı Vardan Sepoyanın xəstəxanaya aparıldığını müəyyən edib. Məlum olub ki, bu haylar həmkəndliləri 34 yaşlı Baqrat Xaçatryan, 29 yaşlı Hayk Safaryan və 27 yaşlı Aram Qoqolyanın cəsədlərini “Megradzor Gold”a məxsus işləməyən qızıl mədənindən çıxarmaq istəyərkən zəhərləniblər. Mənbənin dediyinə görə, polis də həmin şəxslərin meyitlətinin yuxarıda adı çəkilən mədən şaxtasının ”Kəlbəcər” adlanan hissəsində olduğunu aşkar edib. Ölənlərin adı çəkilən mədəndə şaxtaçı kimi çalışdığı məlum olub. Qeyd edək ki, Meqradzor qızıl mədəni ehtiyatlarına görə hazırda “Ermənistan” adlanan Qərbi Azərbaycan torpaqlarındakı 4-cü mədəndir. Mədəndə saf qızıl ehtiyatının 22 ton olduğu bildirilir. Onu da xatırladaq ki, Rusiyanın yeni Baş naziri Mixail Mişustinin erməniəsilli anasının məhz türkcə qədim adı “Tayçarıq” - ermənicə “mişust” mənasını verən Meqradzor kəndində doğulduğu bildirilir.

### Uşağı xilas edən 19 yaşlı müsəlman gənc özü həlak oldu



■ **Başqırdıstanın paytaxtı Ufada suda boğulan uşağın köməyinə qaçaraq onu xilas edən 19 yaşlı müsəlman bir gənc özü həlak oldu.** Hafta.az Rusiya mediasına istinadla yazır ki, faciəli hadisə barədə Başqırdıstan Mülki Müdafiə İdarəsindən məlumat verilib. Həlak olan gənc Tacikistandan olan tələbə Xadjimurat Kalandarov olub. “Tacikistan-24” xəbər saytının məlumatına görə, gənc Başqırdıstan Dövlət Universitetinin birinci kursunda oxuyub. İyunun 7-də Belaya çayının sahilində istirahət edən müsəlman tələbə suda boğulan bir uşağı görüb və dərhal köməyə tələsib. Xadjimurat Kalandarov uşağı xilas edib, ancaq özü sudan çıxmağa güc tapmayaraq boğulub. Dalğıclar onun cəsədini bir neçə saatdan sonra tapıblar.

### ABŞ-da afroamerikalı HHQ qərargah rəisi təyin olundu



■ **ABŞ Konqresi ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) qərargah rəisi vəzifəsinə afroamerikalı general Çarlz Braunun təyin edilməsini təsdiqlədi.** Hafta.az xəbər verir ki, bu barədə “The Hill” məlumat yayıb. ABŞ tarixində ilk dəfə sözügedən posta qaradərili hərbçi təyin olunub. Ç.Braunun təyinatına senatorlar etiraz etməyib.

*✍ Sultan Laçın*

# "Polis də, müəllim də, həkim də bizimdir, sahib çıxmalıyıq"

***"Məlum olduğu kimi, bu gün bir çox dünya ölkələri pandemiya bəlası ilə üz-üzə qalıb. Bəşər övladı çox ciddi sınaq qarşısındadır. Bütün dövlətlər bu imtahandan üzüağ çıxmağa çalışırlar. Azərbaycan ilk gündən pandemiyaya ilə mübarizə sahəsində operativ və adekvat qərarlar qəbul etdi. Son vaxtlar Azərbaycanın bir çox dövlət qurumları gərgin rejimdə fəaliyyət göstərirlər.***




Onlar arasında elələri var ki, aylardır nə gecələri var, nə də gündüzləri. Neçə vaxtdır ailələri və övladları ilə kifayət qədər vaxt keçirə bilmirlər. Bunun nə qədər çətin olduğunu təsəvvür edirsinizmi?

Bu dövlət qurumları arasında ən çox əziyyət çəkən, ağır yük daşıyan orqanlardan biri Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır. Dünənki hadisədən sonra əksəriyyət polisi qınayan çıxışlar etdi, bəziləri həqarət yağdırdı. Öncə qeyd edək ki, bütün məsələlər dövlətin diqqətindədir. Dövlət hər bir məsələni araşdıracaq və lazım olan qərarları qəbul edəcək. Sualım isə belədir: polisə zibil atanları qınayan çox oldu, yoxsa dünən baş verənləri? Polisə zibil atanları qınayan neçə status paylaşıldı? Bu gün polisi şiddətlə qınayan status yazan, konstitusiyaya və qanunlara istinad edən həmin insanlar polisə zibil və daş atanları qınayan status paylaşmışdılarmı? Bir sıra hallarda polisin bu qədər hədəfə alınmasında məqsəd nədir?!".

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib. Ceyhun Məmmədov bildirib ki, bu gün hamımızın gözü qabağında bir sıra Qərb ölkələrində hüquq-mühafizə orqanlarının insanlarla necə davrandığını görürük.** İnsanları döyür, gözünü çıxarır, üzərlərinə avtomobil sürür, qətlə yetirirlər: "Azərbaycan polisi isə ilk gündən insanlarla xoş rəftar etdi, maksimum səbr və nəzakət nümayiş etdirdi. Bu bir neçə gündə Azərbaycan polisini yaxını dünyasını dəyişən insanı həmin yerə aparan, ana olmağa hazırlaşan xanıma dəstək olan, quşlara və heyvanlara yem yedizdirən, çörəyi olmayana çörək alan gördük. Bunu edən Azərbaycan polisi deyildimi?

Demokratik və sivil bir cəmiyyətdə yaşayırıq. Hər kəs fikrini sərbəst bildirməkdə azaddır. Ancaq biz dövlətçiliyi müdafiə etməli, dövlətin yanında olmalıyıq. İnsanların polisə daş və zibil atması bütün hallarda yol verilməzdir. Müəyyən qüvvələrin bu hadisələri körükləməkdə və insanları qızışdırmaqda məqsədi isə dövlətçiliyi zəiflətməkdir. Hər birimiz diqqətli olmalıyıq.

Bu gün bizə həmrəylik və birlik lazımdır. Polis də, müəllim də, həkim də bizimdir, düşmən deyil, sahib çıxmalıyıq. Məsuliyyət daşımadan bəyanat vermək, tənqid etmək, qərarlar çıxarmaq çox asanadır. Dövlət qurumlarının hansısa qərarına və davranışına fərqli yanaşma ola bilər. Ancaq bunun kinə və nifrətə yönləndirilməsi yolverilməzdir". "Əgər polis vətəndaşa müraciət edirsə ki, bu qaydaya əməl et, yəni çölə çıxma, vətəndaş dərhal onu anlayışla qəbul etməli, ona normal cavab verib və tələbini yerinə yetirməlidir. Əgər tələbi yerinə yetirmirsə, polis məcburdur ki, onu şöbəyə aparsın, orada protokol imzalansın və Azərbaycan Respunlikasının qanunvericiliyinə uyğun olaraq, müvafiq addımlar atsın. Buna görə də mən çox istərdim ki, sosial şəbəkələrdə dəyərli vətəndaşlarımız məsələnin mahiyyətini bilib qanunvericilik baxımından yanaşsınlar və bizim polislərimizin fədakarləğına kölgə salmasınlar. Polislər bunu vətəndaşların xəstələnməməsi və həyatlarını dəyişməməsi üçün edir. Azərbaycan bu bəladan az itkilərlə çıxa bilsin".

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı deyib. O bildirib ki, vətəndaşlarımız polisi deyil, qanunlara riayət etməyənləri günahlandırsınlar:** "Polis üzərinə düşən vəzifəni yerinə yetirib. İndiki çətin vəziyyətdə vətəndaşların protokol qaydasında cərimələnməsi səlahiyyəti polisə verilib. Bunun məhkəyə getməsi uzun sürən prosedurdur. Ona görə də bu cür yanaşmanının hüquqi əsası yoxdur".

Fəzail Ağamalı Yasamal rayonunda karantin rejimi qaydalarına əməl etməyən vətəndaşlarla polis arasında yaşanan qarşıdurmaya münasibət bildirərkən deyib: "Azərbaycan qanunvericiliyə görə, polis karantin rejimi qaydalarını pozanları cərimələmək və ya cəzalandırmaqla bağlı təşəbbüs irəli sürə bilər. Cərimələr polisin səlahiyyətindədir, inzibati cəza, yəni 10-15 günlük cəzasnın verilməsi isə məhkəmə tərəfindən həyata keçirilir. Cərimələrin ödənilməsi birbaşa protokollaşdırılır.

Azərbaycan polisi karantin rejimi dövründə çox böyük fədakarlıq nümayiş etdirdi. Mart ayında maariflənmə işinin aparılması, insanlara qarşı yüksək mədəniyyət, təmkin nümayiş etdirməklə, tibb işçiləri ilə yanaşı onların gərgin əməyi sayəsində ölkəmizdə koronavirusun geniş miqyasda yayılmasının qarşısı xeyli dərəcədə alındı. Daha sonra karantin rejiminin yumşalması zamanı təəssüf ki, yoluxma sayı fərqli bir dinamikaya keçdi. Yoluxanların sayı artdı, sağalanların sayı azaldı. Ölənlərin də sayı, demək olar ki, hər gün artmaqdadır".

Deputat hesab edir ki, maariflənmə işi daha geniş şəkildə aparılmalıdır ki, polisin tələblərinə riayət edilsin: "Riayət etməyənlər də polis tərəfindən müvafiq qaydada intizama dəvət edilkdikdə digər vətəndaşlarımız polisi deyil, qanunlara riayət etməyənləri günahlandırsınlar".

✍ *Tural*

## BÖLGƏ

## SUMQAYITDA ikimərtəbəli yarımçıq tikili binada uçqun olub



**✔ Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Sumqayıt şəhəri, 12-ci mikrorayon ərazisində (Çerkassi və Koroğlu küçələrinin kəsişməsi) məcburi köçkünlərin məskunlaşdığı ikimərtəbəli yarımçıq tikili binada uçqun olması, 1 nəfərin xəsarət alması barədə məlumat daxil olub.**

FHN-dən hafta.az-a bildiriblər ki, nazirliyin Sumqayıt Regional Mərkəzinin və Dövlət Yanğından Mühafizə Xidmətinin Sumqayıt Şəhər Dövlət Yanğından Mühafizə İdarəsinin müvafiq xilasetmə qüvvələri hadisə yerinə cəlb olunub, aidiyyəti dövlət qurumları məlumatlandırılıb. Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən olunub ki, binanın girişində pilləkən uçub, nəticədə xəsarət alan 1967-ci il təvəllüdlü Cəfərova Gülxanım Ramazan qızı xəstəxanaya yerləşdirilib.

Xilasedicilər tərəfindən həyata keçirilən xilasetmə və digər təxirəsalınmaz işlər nəticəsində binada köməksiz vəziyyətdə qalan 5 nəfər (4-ü azyaşlıdır) təhlükəsiz əraziyə təxliyə edilib, ərazidə təhlükəsizlik təmin olunub.

## YEVLAXDA 1,3 tondan artıq narkotik bitki məhv edilib

**✔ Yevlaxda kənd ərazisində bitən yabanı çətənə kolları məhv edilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumatına görə, Yevlax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Qaraməmmədli kəndi ərazisində yabanı halda bitmiş çəkisi 1,3 tondan artıq olan



3342 ədəd çətənə kolu aşkar edilərək məhv edilib.

## ŞƏKİDƏ buraxılış (qəbul) imtahanları 8 mərkəzdə aparılıb



**✔ Dövlət İmtahan Mərkəzinin (DİM) iyunun 10-da Şəkidə ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə keçirdiyi buraxılış (qəbul) imtahanları başa çatıb.**

İmtahanların keçirilməsi üçün Şəki şəhərində 8 mərkəz ayrılıb. Pandemiya şəraitinin tələblərinə uyğun olaraq imtahan mərkəzlərində əvvəlcədən zəruri profilaktik tədbirlər görülüb, binalarda və zallarda dezinfeksiya işləri aparılıb. İmtahana başlamazdan əvvəl binaya daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə hərarətləri yoxlanılıb. İştirakçılar bütün prosesboyu tibbi maskadan istifadə ediblər. İmtahan otaqlarında iştirakçıların sayı sosial məsafə prinsiplərinə uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə təmin olunub.

Dövlət İmtahan Mərkəzinin Şəki regional bölməsindən bildirilib ki, ümumilikdə 1912 nəfərin iştirakının nəzərdə tutulduğu imtahanların idarə olunmasına 26 imtahan rəhbəri və 203 nəzarətçi-müəllim cəlb olunub. İmtahanların keçirilməsi üçün 156 otaq ayrılıb. İmtahan saat 11:00-da başlanıb və 3 saat davam edib. Regional bölmədən verilən məlumata görə, bütün imtahan mərkəzlərində buraxılış (qəbul) imtahanları mövcud təlimata uyğun aparılıb və heç bir qanun pozuntusuna yol verilmədən saat 14:00-da uğurla başa çatıb.

## ŞAMAXI Təcrübə Stansiyasında nadir üzüm sortları artırılır



**✔ Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun Şamaxı Üzümçülük və Şərabçılıq Təcrübə Stansiyasında "Mərəndi və Mədrəsə üzüm populyasiyasının irsi xüsusiyyətlərinin öyrənilməsi, məhsuldar, keyfiyyətli, biotik amillərə davamlı klon formalarının seçilməsi və artırılması" mövzusunda tədqiqat işləri, onların artırılması məqsədilə yeni üzüm bağlarının salınması işləri davam etdirilir.**

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildirilib ki, Mədrəsə və Şamaxı mərəndisi sortlarının bioloji, genetik baxımdan təmiz formalarının seçilib-artırılması, gələcəkdə filokseraya davamlı calaq ting istehsalı üçün calaqüstü materialların istehsalı məqsədilə aprobasiya aparılıb və çubuq tədarük olunub. Hazırda Şamaxı Təcrübə Stansiyasında Mədrəsə üzüm sortundan 35 min ədəd bioloji təmiz çubuq tədarük olunub və ondan 1,5 hektar sahədə üzüm bağı və 1 hektarda tinglik salınıb. Bununla yanaşı, təcrübə təsərrüfatında yeni yaradılmış və dövlət reyestrinə daxil edilmiş "Şamaxı hədiyyəsi" sortunun da seleksiya, qiymətləndirilmə və çoxaldılma işləri davam etdirilir. Təsərrüfatın əməkdaşları tərəfindən Mədrəsə sortunun inkişafı məqsədilə bölgənin torpaq-iqlim şəraiti, becərmə, texnika və texnologiyaların xüsusiyyətləri nəzərə alınaraq bağ 3,0x1,5 m əkin sxemi ilə əkilib.

Mədrəsə sortundan salınan üzüm bağından gələcəkdə filokseraya davamlı calaq-əkin materialının istehsalı üçün çubuq tədarükü nəzərdə tutulur. İstehsal olunan tinglər isə fermerlərə tövsiyə ediləcək.

# Koronavirusla mübarizədə Azərbaycanın fəaliyyəti çox yüksək dəyərləndirilir



**Fikrət Sadıqov,**
Politoloq, Qərbi Kaspi Universitetinin professoru

**Ötən gün ölkə başçısı koronavirusla mübarizə çərçivəsində modul tipli xəstəxananın açılışında çıxışı zamanı bir sıra nüanslara diqqət çəkdi. Ölkə başçısı bildirdi ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır.**

Bəli, doğrudan da belədir. Bunu təkcə ölkə başçısı demir. Dünyanın aparıcı təşkilatları, dövlətləri də müxtəlif tribunalardan bu həqiqəti ifadə edirlər. Prezident bildirdi ki, Azərbaycan beynəlxalq miqyasda özünü çox məsuliyyətli aparır: "Beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bir neçə dəfə bu sahədə nümunəvi ölkə adlandırıb.

Onu da qeyd edək ki, koronavirusla mübarizə sahəsində işləri təşkil edən qurumların - Operativ Qərargahın, İcbari Tibbi Sığorta Agentliyinin və TƏBİB-in fəaliyyəti yüksək qiymətləndirilir. Özü də dünya miqyasında xoş sözlər deyilir.

Bəs Azərbaycan bu təşəkkürləri nəyin hesabına qazanıb? İkinci faktı desək, fikrimizcə, yetərli olar. Birincisi, koronavirus xəstələrini müalicə etmək üçün ən qabaqcıl 20 xəstəxana ayrılıb. İkincisi, Azərbaycanda yeni laboratoriyalar alınmış, hazırda onların ümumi sayı 20-dən çoxdur.

■ **Politoloq, Qərbi Kaspi Universitetinin professoru Fikrət Sadıqov hafta.az-a açıqlamasında bildirib ki, hər halda biz pandemiyanın ilk günlərindən köməyi ehtiyacı olan ölkələrə öz yardımlarımızı göstərdik. Əlimizdən gələni əsirgəmədik:**

"Tibbi maska və digər zəruri tibbi avadanlıqlar göndərdik. Bütün bunları Azərbaycanda olarkən Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri də çox yüksək qiymətləndirdi. Onu da qeyd etmək lazımdır ki, koronavirusla mübarizə işində dünyanın aparıcı dövlətləri də Azərbaycanın bu yöndə fəaliyyətini çox yüksək şəkildə dəyərləndirdi. Biz pandemiyanın elə ilk günlərindən bir sıra qabaqlayıcı tədbirlər görməyə başladıq. Bu, indi də davam edir. Bəzi vacib tədbirləri Azərbaycan bir sıra ölkələrdən daha qabaq həyata keçirmişdi. İlk ölkələrdən idik ki, sərhədləri bağladıq. Aviareysləri, digər kommunikativ əlaqələri kəsdik ki, virusa qarşı mübarizəmiz daha effektli olsun. İndinin özündə də Azərbaycan dövləti koronavirus pandemiyası ilə bağlı bütün məsələləri, tədbirləri, görüləcək işləri daim diqqətdə saxlayır. Təbii ki, dövlət başçısı dünənki tədbirdə bunu xüsusi vurğuladı.

O bildirdi ki, Azərbaycan, hətta Birləşmiş Millətlər Təşkilatı çərçivəsində pandemiya ilə bağlı xüsusi sessiyanın keçirilməsinin təşəbbüskarıdır. Sammitdə iştirak edən BMT-nin Baş katibi də bunu eşitdi və razılıqla qəbul etdi. Qoşulmama hərəkatına üzv olan dövlətlər BMT-yə üzv olan ölkələrin çoxluğunu təşkil edir. Bu, ümumi bir bəladır, koronavirus bütün dünyaya meydan oxuyur. Biz bu ümumi problemi ümumi şəkildə həll etməliyik. Düşünürəm ki, bizim bundan sonra da aparıcı ölkələrlə, beynəlxalq təşkilatlarla da gördüyümüz işlər müsbət nəticələr və dividendlər gətirəcək".

✍ *Tural*

# "Çalışırıq, pandemiyanın iqtisadiyyata vurduğu zərərlər minimum həddə olsun"

**"Azərbaycan dövləti şüurlu şəkildə məhdudlaşdırıcı tədbirlərə gedərək insanların sağlamlığını iqtisadi amildən üstün tutdu. Azərbaycan beynəlxalq arenada, iqtisadi, sosial sahədə özünü güclü dövlət kimi göstərdi". Bu fikirlər ölkə başçısının ötən gün modul tipli xəstəxananın açılışında səsləndirdiyi statlardır.**



**Azər Badamov,**
millət vəkili

Daha dəqiq desək, iki cümlədir. Ölkə başçısı elə həmin mərasimdə bildirdi ki, Azərbaycan iqtisadiyyatı pandemiyanın vurduğu zərərlərə baxmayaraq, ayaqda dura bildi. Özü də bunu təkcə ölkə başçısı demir, iqtisadi göstəricilər, müəyyən artım templəri də təsdiqləyir.

■ **Millət vəkili Azər Badamov hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycan iqtisadiyyatı ölkə başçısının rəhbərliyi altında böyük inkişaf yolu keçib. Millət vəkilinin sözlərinə görə, iqtisadiyyatın diversifikasisı siyasətinin uğurları pandemiya dövründə də görülməkdədir:**

"Dünya ölkələrinə baxdıqda görərik ki, pandemiyanın əks təsirləri nəticəsində iqtisadiyyatları güclü olan dövlətlərin iqtisadiyyatları tənəzzülə uğramaqdadır. Bütün dünya buna şahidlik edir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatlarının 7-8 faiz geriləməyə getdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatında, ümumdaxili məhsulda 4 ay ərzində 0,2 faiz artım qeydə alınıb. Son beş ayda isə mənfi 1,7 faiz azalma müşahidə olunub. Yəni, biz bu azalmanı gözləyirdik. Çünki pandemiyanın iqtisadiyyata təsirləri mövcuddur. Biz pandemiyanın iqtisadiyyata mənfi təsirlərinin minimuma endirilməsi istiqamətində müəyyən tədbirlərə start verdik. Bir sıra işlər həyata keçirildi. Bu tədbirləri həyata keçirməyə başlamaqla itkilərin daha da böyük olmasının qarşısı alındı. Baxmayaraq ki, ümumdaxili məhsulda mənfi 1,7 faiz azalma qeyd olunub, amma qeyri-neft sektorunda cüzi də olsa artım var. Bu artım qeyri-neft sənayesində 14 faizdir. Kənd təsərrüfatında 3,6 faiz artım var. Əlbəttə ki, bütün bunlar düşünülmüş iqtisadi siyasətin nəticələri kimi qeyd olunmalıdır". Millət vəkilinin fikrincə, dünyada elə ölkə yoxdur ki, pandemiyanın əks təsirləri ondan yan keçsin. Azər Badamov hesab edir ki, bu illər ərzində ölkəmizdə formalaşdırılmış valyuta ehtiyatları, iqtisadiyyatda texnoloji istehsal sahələrinin, eləcə də sənayenin inkişafı, kənd təsərrüfatında həyata keçirilən islahatlar iqtisadiyyatımızın dinamik, eyni zamanda sabit inkişafının qorunub saxlanmasına imkanlar açır: "Pandemiyanın nə zaman bitəcəyi bilinmir. İqtisadiyyata dəyən zərərlər də realdır. Amma biz çalışırıq ki, bu zərərlər minimum həddə olsun. Ümid edirəm ki, Azərbaycan iqtisadiyyatı bu mübarizədən üzüağ çıxacaq. Yəni, ilkin nəticələr müsbətdir. Düşünürəm ki, bu tendensiya ilin sonuna qədər davam edəcək. Fikrimcə, pandemiyanın iqtisadiyyatımıza olan mənfi təsirləri çox dərinə getməyəcək".

✍ *Tural*

# Azərbaycanda koronavirus qurbanlarının sayı dünya göstəricisindən 5 dəfədən azdır

**"Azərbaycan hökumətinin pandemiya ilə mübarizədə özünü biruzə verən ən vacib cəhətlərdən biri böyük humanizmdir və Prezident İlham Əliyevin siyasətində bunu aydın şəkildə görmək mümkündür". Bunu Baş Nazirin müavini Əli Əhmədov deyib.**

Onun sözlərinə görə, hazırkı şəraitdə insanların sağlamlığı və pandemiyanın iqtisadiyyata vurduğu zərbə aradan qaldırılır: "Prezidentimizin qeyd etdiyi kimi, bizim həyata keçirdiyimiz siyasətlə əlaqədar olaraq insanların sağlamlığının qorunması ilə pandemiyanın iqtisadiyyata vurduğu ziyanın aradan qaldırılması arasında seçim etmək lazım gələrsə, bizim üçün əsas olan insanların sağlamlığıdır. Məhz bunun nəticəsində Azərbaycanda pandemiyaya qarşı aparılan mübarizə daha müsbət nəticələr verib". Ə. Əhmədov qeyd edib ki, bu gün dünyada pandemiyaya yoluxanların sayı 7 milyondan, onun qurbanlarının sayı isə 400 min nəfərdən çoxdur: "Dünyada hər 1 milyon nəfərə pandemiya qurbanlarının sayı, təxminən, 440 nəfərdir. Azərbaycanda isə bu göstərici dünya göstəricisindən 5 dəfədən azdır. Bu müsbət nəticə Prezidentimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi siyasətin ifadəsidir".

✍ *Hafta.az*

# Su itkisini aradan qaldırmaq üçün innovativ ideyalar axtarılır

KİVDF
Ekologiya və ətraf mühitin mühafizəsi

Bununla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə BMT-nin İnkişaf Proqramı yeni yarışmaya start verib

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin İnkişaf Proqramı (BMTİP) mövcud su problemlərinə texnoloji həllər tapmaq və suyun həyati əhəmiyyəti ilə bağlı maarifləndirmə işinə dəstək vermək məqsədilə "Hackathon Azerbaijan" komandası ilə birgə Azərbaycanda su mövzusunda keçiriləN ilk virtual hakatona start verir. BMTİP-in Azərbaycan ofisindən bildiriblər ki, hakaton yarışmadır və məqsədi keçirildiyi müddət ərzində innovatorlar, proqramçılar və hakerləri bir araya gətirərək verilən suallara yeni həll yollarının proqramlar, alətlər şəklində təklif olunmasına sövq etməkdir.***



"Aquahack" adlandırılan hakaton innovatorları, proqramçıları, şirkətləri, vətəndaş cəmiyyəti təşkilatlarını, eləcə də, 13 yaşdan yuxarı ən fəal icma üzvlərini suyun kəmiyyət və keyfiyyətinin qorunması və su ehtiyatlarına təzyiqlərin azaldılması üçün texnoloji ideyalar və həllər təklif etməyə dəvət edir. Nümunə üçün deyə bilərik ki, Azərbaycanda ən çox su itkisinə kortəbii suvarma təcrübəsi səbəb olur və bu sahədə təklif ediləcək ideyalar yeni qənaətcil, çevik və innovativ suvarma üsullarından istifadəni sövq edəcək.

Problemin həlli istiqamətində təklif ediləcək ideyalar fermerləri torpaq və meteoroloji məlumatlardan optimal şəkildə istifadəni təmin edən yeni suvarma üsulları ilə tanış etməklə bağlı ola bilər. Digər həllərə ev şəraitində sudan qənaətlə istifadəyə dair yeni ictimai məlumatlandırma metodları aid edilə bilər.

"Aquahack" yarışmasına qeydiyyat iyunun 10-dan 25-dək keçiriləcək və hakatonda iştirak tamamilə ödənişsizdir. Müraciətlər həm fərdi, həm də qrup şəklində təqdim oluna bilər. Müraciət prosesi bitdikdən sonra iştirakçıları konkret problemlər və mövzu ilə ətraflı tanış etmək məqsədilə silsilə vebinarlar təşkil olunacaq. Bütün ideya və təkliflər ixtisaslaşmış münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Ümumilikdə, 3 mükafat - birinci yer üçün 5000, ikinci yer üçün 3000 və üçüncü yer üçün 2000 manat təqdim olunacaq. Son müraciət tarixi iyunun 25-dir. Yeri gəlmişkən, Kənd Təsərrüfatı Nazirliyi və "Meliorasiya və Su Təsərrüfatı" ASC isə suvarma məqsədilə sudan səmərəli və qənaətli istifadəni təmin etmək məqsədilə birgə məlumat yayıb. Məlumatda qeyd olunur ki, ölkə ərazisində mövcud su qıtlığı və su anbarlarında yaranmış vəziyyət suvarma məqsədilə sudan səmərəli və qənaətli istifadəni təmin etməyi tələb edir. Suvarma məqsədilə sudan səmərəli və qənaətli istifadə üçün bu sahədə bütün maraqlı tərəflər, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalçıları cəlb edilməklə suvarma qrafikləri tərtib olunmalı və sudan istifadə həmin qrafiklər əsasında həyata keçirilməlidir.

Suvarma qrafikləri su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında tərtib olunmaqla bütün kənd təsərrüfatı məhsullarının istehsalçılarının suvarma suyu ilə təchizatının yaxşılaşdırılmasına xidmət edir. Odur ki, bütün kənd təsərrüfatı məhsullarının istehsalçılarından fəaliyyət göstərdikləri inzibati ərazi üzrə Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Aqrar İnkişaf Mərkəzlərinə (DAİM), Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli bölmələrinə və Sudan İstifadəedənlər Birliklərinə (SİB) müraciət edərək suvarma qrafiklərinin tərtib olunmasında fəal iştirak etmələri tələb olunur. Suvarma qrafiklərini kənd təsərrüfatı məhsullarının istehsalçıları imzaladıqdan sonra Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Aqrar İnkişaf Mərkəzləri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli bölmələri və Sudan İstifadədənlər Birlikləri təsdiq edir. Təsdiqlənmiş suvarma qrafikləri Kənd Təsərrüfatı Nazirliyinin rəsmi internet saytında (www.agro.gov.az/qrafik) inzibati ərazi vahidləri üzrə qruplaşdırılaraq yerləşdirilir. Suvarma qrafiki həmin internet saytında yerləşdirildikdən sonra tətbiq edilir.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirə zamanı bu məsələyə diqqət çəkib. Dövlət başçısı bildirib ki, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq var: "Bəzi proqnozlar onu göstərir ki, Azərbaycanda bəlkə on ildən, iyirmi ildən sonra səhralaşma prosesi istisna deyil. Ona görə biz bəri başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlığı xatırlamırlar. Bu il də quraqlıq gözlənilir. Ona görə su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir. Heç kimə sirr deyil ki, su olan yerdə məhsuldarlıq da artır və insanların dolanışığı da yüksəlir. Məhz bu məqsədlə ölkəmizdə bir neçə önəmli genişmiqyaslı layihə icra edilib. Əgər Şəmkirçay su anbarı, Taxtakörpü su anbarı vaxtında tikilməsəydi, kanallar çəkilməsəydi, o sudan qidalanan rayonlarda böyük çətinliklər ola bilərdi. Biz son bir neçə il ərzində orta hesabla təqribən yüz min hektara yaxın torpağa suyun verilməsini təmin edirik. Bunlar vaxtilə suvarılmayan, yaxud da ki, suvarılması lazımi səviyyədə olmayan torpaqlardır. Ona görə bundan sonra da kənd təsərrüfatının və fermerlərin bu sahədə tələbatını ödəmək üçün gərək yeni proqram tərtib edilsin. Biz köhnə metodlara gedə bilmərik. Çünki bu metodların səmərəliliyi özünü doğrultmur. İndi dünya texnologiyaları bütün sahələrdə inkişaf edir, o cümlədən meliorasiya sahəsində.

Biz indi bu işləri dədə-baba üsulu ilə görə bilmərik. Yeni texnologiyalar tətbiq edilməlidir. Mənə verilən məlumata görə, bəzi yerlərdə suyun itkisi 40-50 faizə çatır. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük investisiya qoyulub. Amma vaxtilə tikilmiş qurğuların, infrastrukturun bir çoxu çürüyüb və həm suyun çatdırılmasına imkan vermir, həm də ki, o sızmalar torpağın şoranlaşmasına gətirib çıxarır. Ona görə biz burada iki ziyan görürük. Onu da bilməliyik ki, bizim su ehtiyatlarımız o qədər də geniş deyil və əsas su mənbələrimiz sərhədlərimizin kənarında formalaşır. Ona görə hər damcı su bizim üçün önəmlidir.

Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Sovet vaxtında tikilmiş su kanallarımızın demək olar ki, hamısı torpaq kanallardır. Son vaxtlar biz ancaq beton kanallar tikirik və vaxtilə tikilmiş torpaq kanalları betona alırıq. Beləliklə, su itkisinin qarşısını alırıq. Ancaq hesab edirəm ki, daha irəli baxmalıyıq. İndi dünyanın inkişaf etmiş ölkələrində, xüsusilə, bizim iqlimimizə oxşar iqlimi olan ölkələrdə təcrübə var, orada məhsuldarlıq da çox yüksəkdir və bu təcrübə Azərbaycanda tətbiq edilməlidir".

Məlumat üçün onu da deyək ki, Cənubi Qafqaz ölkələri arasında Azərbaycanın su ehtiyatları daha məhduddur. Ərazi və adambaşına düşən su ehtiyatları Gürcüstandan 7,7 və 8,3 dəfə, Ermənistandan isə 2,2 və 1,7 dəfə azdır. Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanıb. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır. Azərbaycanın yerüstü su ehtiyatlarının 19-20,6 kubkilometri transsərhəd çayların, 9,5-10 kubkilometri isə yerli çay axımı hesabına formalaşır. Samur çayı istisna olmaqla birbaşa Xəzər dənizinə tökülən çayların illik su ehtiyatı 2,2-2,5 kubkilometr təşkil edir ki, bunun da 1-1,1 kubkilometri Böyük Qafqazın şimal-şərq yamacından, 1,2-1,4 kubkilometri Lənkəran təbii vilayətindən axan çayların payına düşür. Kür çayının hövzəsinə daxil olan sağ və sol qolların ümumi su ehtiyatı isə 7,5-7,8 kubkilometr təşkil edir.

Respublika ərazisindəki irili-xırdalı 8359 çaydan yalnız 171-nin uzunluğu 25 kilometrdən artıqdır. 327 çayın uzunluğu 25 kilometrdən, 7861 çayın uzunluğu isə 10 kilometrdən azdır. Hesablamalara görə, Azərbaycanda çay şəbəkəsinin orta sıxlığı 0,39 kubkilometr təşkil edir. Çay şəbəkəsinin ən böyük sıxlığı Lənkəran (0,84 kilometr/kvadratkilometr), ən az sıxlığı isə Ceyrançöl və Abşeron-Qobustan (0,20 kilometr/kvadratkilometr) bölgələrinin payına düşür.

BMT-nin ötən il açıqladığı hesabatda göstərilir ki, 1980-ci illərdən başlayaraq su istehlakı ildə 1faiz artır. Bu o deməkdir ki, son 30 ildə dünyada sudan istifadə təqribən 30 faiz artıb. BMT-nin hesabatında buna səbəb kimi dünya əhalisinin, sosial-iqtisadi inkişaf və istehlak nümunələrinin artımı göstərilir. Gözlənilir ki, sənayedə və məişətdə suya tələbatın artması səbəbi ilə sudan istifadə 2050-ci ilə qədər bu templə artacaq. Bu da indiki istifadə səviyyəsindən 20-30 faiz daha çox istifadə deməkdir.

***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Sosial məsafə qaydalarına əməl etməməyin nəticəsi - yoluxma sayı artır



**Koronavirus pandemiyası yayıldığı vaxt dünya ölkələri arasında bu virusa yoluxma ən az Azərbaycanda idi. Bu gün isə yoluxma sayı gündən-günə artır.**

Belə ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) Azərbaycanda koronavirusla bağlı iyunun 8-nə olan statistik göstəriciləri açıqlayıb. Ölkədə 3406 nəfər aktiv koronavirus xəstəsidir. Onlardan 140 nəfər reanimasiyada, 20 nəfər isə süni tənəffüs cihazındadır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus isə bildirib ki, Avropada koronavirusla bağlı vəziyyət yaxşılaşsa da, dünya miqyasında pisləşir. "Bizdə olan məlumata görə, hazırda demək olar ki, dünyada 7 milyon insan koronavirusa yoluxub. Ölənlərin sayı isə 400 mindir, lakin Avropada vəziyyət yaxşılaşmağa doğrudur", - deyə baş direktor vurğulayıb. TƏBİB-in rəhbəri Ramin Bayramlı sonuncu brifinqdə bildirdi ki, son günlər yoluxmanın sayının artmasının səbəbi insanların masqadan taxmamaları, sosial məsafələrə riayyət etməmələri və digər izolyasiya tədbirlərinə əməl etməmələridir. Bəs bu qaydalara vətəndaşlar necə əməl etməlidirlər?

■ **Bununla bağlı hafta.az-a həkim, professor Adil Qeybulla danışarkən dedi ki, birinci növbədə insanların maskada gəzməsi, sosial izolyasiya məsafəsini gözləməsi şərtdir və ciddi nəzarət həyata keçirilməlidir:**

"Çünki bu gedişlə ikinci dalğa ola bilər. İnsanlar paltar mağazalarına daxil olub, eyni mallara baxırlar. Belə olanda yanlarında xəstə birinin dayanmasının fərqində olmurlar. Lakin bərbərxanalarda heç olmasa stullar aralı qoyularaq sosial izolyasiya tədbirləri görülə bilər. Bu baxımdan niyə görə geyim mağazalarına icazənin verilməsi, ancaq bərbərxanaların fəaliyyətinin bərpa edilməməsi mənə də aydın deyil. Hesab edirəm ki, bu qərara yenidən baxılmalıdır.karantin bitdikdən sonra da önləyici tədbirlərə ehtiyyac var. Müşahidə edirəm ki, insanlar karantinin yumşaldılmasından istifadə edərək maskasız gəzirlər. Bu səbəbdən təklif edirəm ki, insanlara bu məsələ ciddi surətdə başa salınsın və nəzarət gücləndirilsin. Yəni maskada gəzmək şərti qaydası daha da gücləndirilməlidir. Məsələn, Almaniyada da karantin yumşaldılıb, lakin maskada gəzmək qəti şərt olaraq saxlanılıb".

■ **Tanınmış həkim-psixoterapevt Əli Nağıyev isə deyir ki, ilk növbədə, hər bir qrip halında poliklinikalara getməliyik:**

"Koronavirusla bağlı spesifik profilaktika, vaksinasiya hələ ortada olmadığı üçün xəstəlikdən qorunmaq üçün qeyri-spesifik profilaktika növündən istifadə edilməlidir. Yeni immuniteti gücləndirən vasitələrindən yararlanmalıyıq. Çoxlu maye qəbul etməli, sarımsaq və soğandan daha çox istifadə etməliyik. Tibbi profilaktika növlərindən biri də fiziki aktivlikdir.

İdmandan vaz keçilməməlidir. Açıq havada daha çox gəzmək lazımdır. İş mühitində öskürən, asqıran, burnu axan varsa, o adamlardan uzaq durmalıyıq. Xəstələrdən tibbi maskalardan istifadə etmək, işə çıxmamaq tələb olunmalıdır. Fərdi səviyyədə edə biləcəyimiz bunlardır. Dövlət və səhiyyə sistemi öz işini görür".

■ **Həkim professor Rəşid Mahmudov hafta.az- a açıqlamasında dedi ki, mən özüm də iki gün çölə çıxmadım, qoyulan qaydalara əməl etmək lazımdır:**

"Biz bir olmalıyıq. Koranavirusla mübarizədə nə müxalifət, nə iqtidar olmamalıdır. Hamımız bir olmalıyıq. Bu bəladan qurtarmalıyıq. Mən televiziyadan izləyirəm ki, koronavirusu xəstələr üçün bütün şərait yaradılıb. Bokslar, xüsusi otaqlar və bunlarda ən müasir şərait yaradılıb. Dövlətimiz vaxtında qərar verə bildi. Avropa ölkələrində vəziyyət çox gərgindir. Bütün küçələr bu gün dezinfeksiya olunur. Xarici tələbələr var idi, onları da karantinə aldılar. Hamı bu işə dəstək olmalıdır. Azərbaycanda düzgün qərarlar verilir. Bu qərarlara isə cəmiyyət normal yanaşmalıdır".

***Ruzbeh***

# Özünüməşğulluq proqramı iştirakçıları üçün təlimlərə başlanılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq proqramı iştirakçıları üçün təlimlərin keçirilməsinə başlayıb.** Nazirlikdən hafta.az-a verilən məlumata görə, təlimlər "Vətəndaş qəbulu həyata keçirən qurumlarda koronavirus (COVİD-19) infeksiyasının profilaktikasına dair" metodiki göstərişlərə uyğun şəkildə, 10 nəfərdən ibarət qruplar halında təşkil edilir.

İlkin mərhələdə koronavirus pandemiyası ilə əlaqədar təlimlərində fasilə yaranmış 1102 nəfərin təlimləri davam etdirilir. Növbəti mərhələdə isə 1804 iştirakçı təlimlərə cəlb ediləcək. Bu ilin əvvəlindən artıq 2600 nəfər proqram üzrə təlimlərə cəlb edilib. Təlimlər zamanı biznesplan qurmaq, kiçik biznesin təşkili və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlar öyrədilir.




# Sabiq prokurorluq əməkdaşının cinayət işi məhkəməyə göndərilib



**Prokurorluq orqanları tərəfindən qanunla ona həvalə edilmiş səlahiyyətləri çərçivəsində korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı mübarizədə ardıcıl tədbirlərin icrası davam etdirilir. Baş Prokurorluğun Mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, bu xüsusda prokurorluq orqanlarının əhali arasında olan nüfuzuna və imicinə kölgə salmaqla vətəndaşların qanunla qorunan mənafelərinə zərər vuran prokurorluq əməkdaşı barədə qanunamüvafiq tədbirlər görülüb.**

Belə ki, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin sabiq əməkdaşı Orxan Hacıyevin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş material araşdırılıb.

Aparılmış araşdırmalarla Orxan Hacıyevin 2015-2018-ci illərdə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsinin prokuroru vəzifəsini icra edərkən icraatında olan cinayət işinin istintaqı ilə əlaqədar vəzifə səlahiyyətlərindən sui-istifadə edərək zərərçəkmiş şəxsin qohumunu xidməti otağında qəbul edərək istintaqın aparılması və təqsirləndirilən şəxsin tutulmasi məqsədilə əməliyyat tədbirlərinin keçirilməsinin təşkili üçün xərclərin həmin şəxs tərəfindən ödənilməli olması adı ilə aldadaraq 5000 manat məbləğində pulunu ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 178.2.3-cü (qulluq mövqeyindən istifadə etməklə dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. İş üzrə Orxan Hacıyev təqsirləndirilən şəxs qismində cəlb olunaraq ona Cinayət Məcəlləsinin qeyd edilən maddələrdə nəzərdə tutulmuş ittiham elan olunub. Cinayət işi üzrə istintaq tamamlanaraq 10 iyun 2020-ci il tarixdə baxılması üçün Nəsimi rayon məhkəməsinə göndərilib.

***Hafta.az***

# Bakıxanovun dezinfeksiya edilməyən məhəllələri

***Pandemiyanın tüğyan elədiyi bir vaxtda, paytaxtın elə küçələri var ki, natəmizlik içindədir. Dezinfeksiya, təmizlik, abadlıq və təmir işləri, demək olar ki, unudulub. Belə ərazilərdən biri də Sabunçu rayonu Bakıxanov qəsəbəsi, Mustafa Vəkilov küçəsində yerləşən 1, 2, 3, 5, 7 və 10 saylı binaların həyətidir.***



Sözügedən binaları birləşdirən həyət böyük ərazini əhatə edir. Vaxtilə sözügedən ünvanda salınmış parkdan əsər-əlamət qalmayıb. Adıçəkilən ünvanda olduq. Parkda , binaların həyətində xeyli sakin vardı. Uşaqlar daha çoxluq təşkil edirdi. Bir-iki nəfəri çıxmaq şərti ilə, heç kəs qoruyucu maskalardan istifadə etmirdi. Demək olar ki, COVİD-19 virusunun mövcud olduğu əhali arasında hiss edilmirdi. Temperaturun yüksək olmasına baxmayaraq, sözügedən parkda hava çox sərin və təmiz idi.



Sakinlər “Həftə içi”nə üzləşdikləri problemlərdən şikayətlənərək bildirdilər ki, yaşadıqları binalar sovet dönəmində, 1932-ci ildə almanlar tərəfindən inşa edilib: “Yaraşıqlı binalardır. Baxımsız qaldığından, artıq binaların əksəriyyətində dərin çatlar əmələ gələrək qəzalı vəziyyətə düşüb. 3 saylı binada 4 dəfə yanğın olub, xoşbəxtlikdən ölüm hadisəsi baş verməyib. Eləcə də 5 saylı bina 3-cü mərtəbəsinə kimi yanaraq acınacaqlı vəziyyətə düşüb. Artıq yanğından 3-cü mərtəbənin döşəmələri uçub-tökülür. Bütün binaların, xüsusilə də 7 saylı binanın zirzəmisi çirkab içindədir. Hətta polietilendən olan materiallara kimi binanın zirzəmisinə atılıb. Allah göstərməsin, bir yanğın hadisəsi baş verərsə, bina tamamilə yana bilər. Bir balaca külək olan kimi binanın damlarında vaxtilə antena kimi quraşdırılmış nazik dəmir dirəklər həyətə düşür. Bu da xoşagəlməz hadisələrlə nəticələnə bilər. Eləcə də binaların çölə çıxan betondan salınmış eyvanları uçub-tökülür. Hər zaman qopub yerə düşə bilər. Nə gəlib binaları təmir edən var, nə də bizi təzə binalara köçürən”.

**Reportaj**

**Sakin Şəfaqət Babayeva 10-cu binanın 1-ci mərtəbəsində, 32 saylı mənzildə yaşadığını dedi. Onun sözlərinə görə, yaşadıqları binanın zirzəmisi kanalizasiya suyu ilə dolub:**

“Nəfəs almaq mümkün deyil. Ağcaqanadlar, siçan və siçovullar baş alıb gedir. Yaşadığımız binanın zirzəmisi antisanitar yuvasına çevrilib. Koronavirusdan da təhlükəli xəstəliklər baş alıb gedir. Hətta Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevin qəbulunda oldum və düşdüyümüz acınacaqlı durum barədə məlumat verdim. Başçı aidiyyəti qurumlara göstəriş verib ki, gəlib binanın kanalizasiya xəttini düzəltsinlər. Sabunçu Sukanal İdarəsinin işçiləri gəlib, mühərrik vasitəsilə zirzəminin çirkab sularını çəkib-boşaltdılar, amma sınan kanalizasiya xəttini isə düzəltmədilər. İndi yenə də həmin vəziyyət yaranıb. Çirkli kanalizasiya suları bütün günü binamızın zirzəmisinə axır”.

Sakinlər söylədilər ki, vaxtilə binaların həyətində park salınmışdı, onların isritahəti üçün hər cür şərait var idi: “İndi baxımsız qalıb. Söhbətgahlar uçub-tökülür. Oturacaqlar köhnə, sınıq-salxaqdır. “Şəhid bulağı” yararsız vəziyyətə düşüb. Bulağın kranına qədər sökük-aparıblar. Bulağın içi isə zibilxanaya çevrilib. Kimin zibili varsa, bulağın içinə atır. Parkda olan fəvvarə də dağılıb. Bu yaxınlara kimi fəvvarə işləyirdi. İsti yay günlərində fantan vuran su ərazini sərinlədirdi. İndi divarları uçub-tökülür, bərbad vəziyyətdədir, içində isə hər cür tullantıya rast gəlmək mümkündür. Sakinlərin istirahəti və uşaqların oynaması üçün heç bir şərait yoxdur. İstidə evdə oturmaq olmur. Sakinlər gəlib tozun, natəmizliyin içində otururlar. Gecə düşən kimi, qaranlıq hökm sürür, sahibsiz itlər sürü halında həyətə gəlir, qadın və uşaqları əməlli-başlı qorxudur.

Binaların həyətində çoxlu sayda qurumuş ağaclar var. Ağac var ki, yıxılıb, onu kəsib aparan yoxdur. Üç aydır, karantin rejimində yaşayırıq. Bu müddət ərzində COVİD-19 pandemiyasına qarşı gəlib yaşadığımız binaların girəcəklərini, həyətini, zibil qutuları qoyulan ərazini və eləcə də parkda dezinfeksiya işləri aparmayıblar”.

✍ *Qələndər*

# Yas çadırlarını kirayə verən şirkətlər, şəxslər cərimələnsin

**Yas yerlərində koronavirusa yoluxmaları çoxalması ciddi narahatlıq doğurur. Təəssüflər olsun ki, xəbərdarlıqlara baxmayaraq, vətəndaşlarımız koronavirusla mübarizədə lazımi məsuliyyət nümayiş etdirmirlər.**



■ Bunu Trend-ə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. M.Quliyev bildirib ki, əsasən rayonlarda, kəndlərdə kütləvi şəkildə yas mərasimlərinin keçirilməsi müşahidə olunur ki, burada da çoxlu sayda yoluxmalar baş verir:

”Hesab edirəm ki, bu məsələdə bir neçə istiqamətdə ləngimədən iş aparmaq lazımdır. Birinci növbədə yenə də maarifləndirmə işi davam etməlidir. Digər tərəfdən Prezidentin söylədiyi üç özünü qoruma tədbirinə hər kəs mütləq əməl etməlidir - sosial məsafənin qorunması, qapalı yerlərdə tibbi maskalardan istifadə olunması və dezinfeksiya məhlulları ilə tez-tez əllərin təmizlənməsi. Digər tərəfdən yas yerlərinin kütləviliyini azaltmaq üçün də müvafiq addımların atılması lazımdır. Ya Qafqaz Müsəlmanları İdarəsi fətva verməlidir, ya vətəndaşlara müraciət etməlidir, yaxud da onların tabeliyində olan din xadimlərinin vasitəsilə yas mərasimlərinin keçirilməsinin məhdudlaşdırılması üçün tədbirlər görülməlidir. Eyni zamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz xətti ilə lazımi məhdudlaşdırıcı tədbirlər görməlidir. Məsələn, 10-15 nəfərdən çox insanın dəfn mərasimində iştirak etməsinə qadağa qoymalıdır. Sonrakı günlərin yas mərasimləri də, yeni üç, yeddi, cümə axşamları təxirə salınmalıdır”.

Yas mərasimlərində iştirak edən insanların cərimələnməsi məsələsinə gəlincə M.Quliyev bunu doğru hesab etmir:

”Yas yeri elədir ki, burada cərimələr tətbiq etmək olmaz, bu bir az bizim ənənələrimizə uyğun deyil. Amma hər halda yas çadırlarını kirayə verən şirkətlər, şəxslər, mərasim yerlərinin sahiblərinə cərimələr tətbiq oluna bilər”.

# Təcili tədbirlər görülməsə, pandemiya dünyada ərzaq yoxluğuna gətirib çıxara bilər



**Təcili tədbirlər görülməsə, koronavirus pandemiyası dünyada ərzaq yoxluğuna gətirib çıxara bilər. Bu fikir BMT-nin Baş katibi Antonio Quterreşin analitik məruzəsində yer alıb.**

Məruzədə bildirilir ki, koronavirus pandemiyası dünyada hər şeydən əvvəl daha çox həssas icmaların ərzaq təhlükəsizliyinin və qidalanmasının təmin edilməsinə təhlükə yaradır. Mənfi təsirlərin azaldılması üzrə tədbirlər görülməsi və yeni qlobal resessiyalar səbəbindən mövcud ərzaq sistemlərinin fəaliyyəti pozula bilər ki, bu da ağır nəticələrə gətirib çıxarar. Təcili tədbirlər görülməsə, cari vəziyyət qlobal ərzaq fəlakətinə çevrilə bilər.

Antonio Quterreş xatırladıb ki, artıq bir çox ölkələr kəskin ərzaq çatışmazlığını hiss edirlər. Hələ pandemiyadan əvvəl milyonlarla insanlar aclıqdan əziyyət çəkiblər. Bu kontekstdə BMT-nin Baş katibi müvafiq tövsiyələrlə çıxış edib.

Məsələn, ərzaq və yemək xidmətlərinin ən vacib xidmətlər sırasına daxil edilməsi, ərzaq sektoru işçilərinin müdafiəsinin lazımi səviyyədə təmin edilməsi bu qəbildən tövsiyələrə aiddir. Habelə fövqəladə yardım göstərilməsi və iqtisadiyyatın stimullaşdırılması üzrə tədbirlər paketinin əhalinin ən həssas qruplarını əhatə etməsi təmin olunmalıdır. Bununla yanaşı, ölkələr sosial müdafiə sistemini ərzaq təhlükəsizliyi baxımından risk qrupuna daxil olan insanların maraqlarına uyğunlaşdırmalı və genişləndirməlidir. Bu, artıq məktəbdə qidalana bilməyən uşaqların dəstəklənməsini nəzərdə tutur ki, hazırda onların sayı dünyada 352 milyon nəfərdir.

A.Quterreş Dayanıqlı İnkişaf Məqsədlərinə müvafiq olaraq daha səmərəli bərpaolunma planının işlənilib hazırlanmasını təklif edib. Bildirib ki, ərzaq sistemləri ilə iş həmin planda ən vacib alətidir. Təşkilatın rəhbəri 2021-ci ildə keçiriləcək ərzaq sistemləri üzrə sammitə hazırlıqdan da danışıb. Sammitin məqsədi insanların və planetin mənafeyi naminə sürətli və kollektiv tədbirlər görülməsi üçün dünya ictimaiyyətini bir araya gətirməkdir.

✍ *Hafta.az*

# Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupu onlayn videokonfrans keçirib

**İyunun 10-da Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə onlayn videokonfrans keçiriblər.**



■ Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən hafta.az-a bildiriblər ki, videokonfransı Milli Məclisin Səhiyyə komitəsinin sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, akademik Əhliman Əmiraslanov açaraq Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın salamlarını Türkiyənin deputatlarına çatdırıb. Bildirib ki, bu görüş hər iki ölkənin parlament rəhbərlərinin təşəbbüsü və arzusu ilə təşkil olunub.

Sonra Əhliman Əmiraslanov hazırda dünyanı bürümüş koronavirus (COVID-19) pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlər barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə görülmüş qabaqlayıcı tədbirlər xeyli müsbət nəticə verib.

Pandemiya elan olunduğu gündən Azərbaycanda Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb və genişmiqyaslı tədbirlər görülməyə başlanıb. Bunun nəticəsində bu gün Azərbaycanda əhali sayına düşən həm yoluxma göstəricisi, həm də koronavirusdan ölüm sayı digər ölkələrlə müqayisədə dəfələrlə aşağıdır.

İşçi qrupun rəhbəri məlumat verib ki, hazırda ölkəmizdə koronavirusla mübarizə sahəsində 7 mindən çox çarpayı fondu olan 21 xəstəxana fəaliyyət göstərir və həmin xəstəxanaların imkanları son dərəcə genişdir.

Azərbaycanda COVID-19-a yoluxmuş bütün xəstələr dövlət hesabına stasionarda müalicə alırlar. Eyni zamanda, pandemiya dövründə digər ölkələrdən gətirilən soydaşlarımız dövlət hesabına, geniş imkanları olan otellərdə karantinə alınır, həkim nəzarətində saxlanılır.

Dövlətimiz COVID-19 pandemiyası ilə mübarizədə bütün imkanlarını səfərbər edib. Qalır insanların karantin rejiminə riayət etməsi. Əminik ki, görülən tədbirlər müsbət nəticəsini verəcək, yollar açılacaq və biz bir-birimizlə əyani surətdə görüşə biləcəyik.

■ **Videokonfransda Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım iki dövlət, bir millət olan ölkələrimizin və xalqlarımızın qardaşlığından söz açıb.** TBMM-in Sədri Mustafa Şentopun Azərbaycan parlamentinin Sədri xanım Sahibə Qafarovaya və Milli Məclisin bütün üzvlərinə salamlar ünvanladığını bildirib. Pandemiya dövründə, böhran vəziyyətində belə bir-birindən dəstəyini əsirgəməyən Türkiyənin və Azərbaycanın dostluğunun sarsılmaz olduğunu vurğulayıb.

Şamil Ayrım Türkiyədə COVID-19-la aparılan mübarizə barədə məlumat verib. Parlamentlərarası əlaqələrimizin daha da inkişaf edəcəyinə əminliyini vurğulayıb. Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək deyib ki, yubiley günündə Azərbaycanın “Dostluq” ordeni ilə təltif olunmağım sevincimi ikiqat artırıb.

Sonra videokonfransda fikir mübadiləsi aparılıb.

■ **Milli Məclisin deputatları, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Sabir Rüstəmxanlı, Aqiyə Naxçıvanlı, Fazil Mustafa, Rəşad Mahmudov, Nizami Səfərov, Arzu Nağıyev, Ramil Həsən ölkələrimiz arasındakı dostluq-qardaşlıq münasibətlərindən, strateji tərəfdaşlıq əlaqələrindən bəhs ediblər. Qanunvericilik sahəsində qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətindən danışıblar.**

Videokonfransda Türkiyə Böyük Millət Məclisinin üzvləri Orhan Erdem, Yunus Kılıç, Tülay Kaynarca, Aylin Cesur, Yaşar Karadağ, Yılmaz Tunc, Uğur Bayraktutan çıxış edərək Türkiyə-Azərbaycan əlaqələrinin mənəvi, siyasi əhəmiyyətini yüksək qiymətləndiriblər. Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın inkişafından bəhs ediblər.

Söhbət zamanı Azərbaycanın və ulu öndər Heydər Əliyevin böyük dostu olan Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin xatirəsi hörmətlə yad olunub. Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin hər zaman Azərbaycanın mövqeyini dəstəklədiyi vurğulanıb.

COVID-19 pandemiyasının tezliklə bitməsi, əlaqələrin adi ahənginə qayıtması və bütün bəşəriyyətin bu bəladan xilas olması arzulanıb.

Videokonfransı yekunlaşdıran Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov bildirib ki, dövlət başçılarımız bizim qarşımızda böyük vəzifələr qoyub. Əlaqələrimiz çoxşaxəli olmalı və daha sıx inkişaf etməlidir. Videokonfransda TBMM-in deputatları, Azərbaycanla dostluq qrupunun üzvləri İbrahim Aydemir, Yaşar Tüzün, Mehmet Erdoğan da iştirak ediblər.

✍ *Hafta.az*

# “Azərenerji”nin bu il istehsal etdiyi elektrik enerjisinin həcmi açıqlanıb



**Yanvar-may aylarında “Azərenerji” ASC üzrə elektrik enerjisinin istehsalı 9 milyard 650,6 milyon kilovat/saat (İES-lərdə 9 milyard 186,2 milyon kilovat/saat, SES-lərdə 464,4 milyon kilovat/saat) olub.**

Energetika Nazirliyindən hafta.az-a bildirilib ki, 5 ayda Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti üzrə 155,8 milyon kilovat/saat (İES-lərdə 65,2 milyon kilovat/saat, SES-lərdə 75,1 milyon kilovat/saat, günəş stansiyalarında 15,5 milyon kilovat/saat), Müstəqil Elektrik Stansiyaları üzrə 990,1 milyon kilovat/saat təşkil edib.

✍ *Hafta.az*

# "Brent" neftinin orta qiyməti bu il 38 dollar olacaq

◂ əvvəli 1-ci səhifədə



“Goldman Sachs” cari ilin sonuna olan qiymət proqnozunu isə 6 dollar/barrel artıraraq 45 dollar/barrel olaraq dəyişib. Banka görə, pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması ilə artan neft tələbatı fonunda yüksələn neft qiymətləri yenidən aşağı istiqamətli təzyiqə məruz qala bilər.

OPEC+ ölkələri apreldən etibarən kifayət qədər yaxşı işlər görüb, amma onlar ehtiyatı ən azı bu ilin sonuna qədər, bəlkə də 2021-ci ildə də əldən buraxmamalıdır. Bunu Trend-ə fransalı ekspert Fransis Perren deyib.

O bildirib ki, ”Brent” markalı neftin qiyməti apreldə qeydə alınan 18 dollardan bu gün 42 dollaradək qalxıb: ”Bu tendensiya onu göstərir ki, OPEK+ sazişi effektivdir”.

F.Perren qeyd edib ki, mayın 1-dən başlayan hasilatın azaldılması dünya neft bazarının balanslaşdırılmasına xidmət edir:

”Dünyada koronavirusla bağlı məhdudiyyətlərin qaldırılması və ya yumşaldılması tələbatı artırmağa imkan verəcək. Yanvar ayından aprelədək qeydə alınan ucuzlaşmadan sonrakı qiymət artımı iki amillə bağlı olub: az təklif və artan tələbat. OPEC+ ölkələrinin son iclası neft hasilatçıları tərəfindən neft bazarında balansın bərpa olunması üçün atılan addımlardan biridir”. Ekspert xatırladıb ki, OPEC+ ölkələrinin proqnozlarına əsasən, 2020-ci ildə neftə tələbat 9 milyon barel/sutka azalacaq. O hesab edir ki, 2020-ci ilin sonunadək daha çox iş görmək lazım olacaq.

✍ *Hafta.az*

# Avtobuslarda kondisioner işləməyəcək

*Son günlər ölkə ərazisində kəskin temperatur artımı müşahidə olunur. Havanın isti olması Bakıda ictimai nəqliyyatdan istifadə edənlər üçün əlavə çətinliklər yaradır. Səbəb isə çox sadədir. Kkoronavirus pandemiyası ilə əlaqədar ictimai nəqliyyatda maskaların taxılması vacibdir.*



Nəfəskəsən istidə marşrutlarda maska istifadə etmək isə bir çox sərnişinlərdə narahatlıq yaradır. Amma avtobuslarda kondisioner işləyərsə bu ağırlığı bir az azalda bilər.

Bəli, işləyərsə və ya avtobus sürücüləri işlədərsə...

Məlum olan odur ki, Bakı şəhərində hələ ki, yeni avtobuslarda kondisionerləri sürücülər işlətmirlər.

**"BakuBus" MMC-yə məxsus avtobuslarda kondisonerlər işləmir. Sürücü isə belə izah edir:**

"Bizə tapşırıq verilməlidi. Deyilib ki, hələ ki, qoşulmasın.



İsti günlər başlayandan kondisonerləri işlətməmişik. Nə zaman tapşırıq olacaqsa, məmuniyyətlə işlədəcəyik. Bizi bu barədə jurnalistlər incidirlər. Qaynar xətt var. Zəng edin aydınlaşdırın. Başqa halda biz heç nə deyə bilmərik, içəriyə də şəkil çəkmək üçün buraxa bilmərik. İcazə almalısınız".

Həmin ərazidə dayanan digər avtobuslarda da eynidir vəziyyət - kondisioner işləmir, maska ilə avtobuslara daxil olan şəxslər də, istidən dayana bilmədikləri üçün maskanı çıxarmağa məcbur olurlar.

**Eyni vəziyyət Bakıda digər şirkətin - "Xaliq Faiqoğlu" MMC-nin avtobuslarında da mövcuddur.** Bu kimi nəqliyyat vasitələrindən istifadə edən şəhər sakinlərindən soruşduq, istifadə etdikləri avtobuslarda kondisionerləri sürücülər işlədirmi?

Samir bəy deyir ki, istifadə etdiyim avtobuslar, demək olar ki, yeni gətirilən avtobuslardır. Amma istifadə etmirlər: "Hədsiz isti olur. Köhnə avtobuslarda şüşələri açmaq mümkündür. Bunlarda pəncərələr bacalacdır. Açdıqda belə effekt olmur". Digər sakin Rəhimə xanım da narazıdır. Deyir ki, niyə kondisionerlər işləməsin?

**Məsələyə aydınlıq gətirmək üçün müvafiq qurumlarla da əlaqə saxladıq.**

COVID-19 infeksiyasının yayılma riskini nəzərə alaraq ictimai nəqliyyatda, ictimai iaşə obyektlərində sərinləndirmə sistemlərinin işə salınmasına məhdudiyyət qoyulub. Bu barədə hafta.az-a Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, TƏBİB-in tövsiyəsinə əsasən bu addımın atılmasında əsas məqsəd əhalinin sağlamlığının qorunmasıdır. Çünki avtobuslarda olan sərinləndirmə sistemi havanı daxildə dövr etdirir ki, bu da virusun yayılma riskini artırır. "Sərinləndirmə sistemlərinin işə salınmaması sərnişinlərimiz arasında müəyyən qədər narahatlıq yaradıb ki, bu səbəbdən də onlardan məsələni anlayışla qəbul etmələrini xahiş edirik.

Təəssüflər olsun ki, bəzi maraqlı dairələrin və bəzi daşıyıcıların əlində alətə çevrilən müəyyən informasiya saytları bu məsələdə də spekulyasiyalara əl atırlar. Əsassız fikir və yalnış rəy yaymaqla görülən işlərə kölgə salır, sərnişinlər arasında yersiz təşviş və çaşqınlığın yaranmasına səbəb olurlar".

Məlumata görə, son 5 ildə dövlətin diqqəti və qayğısı nəticəsində Bakı şəhəri üçün 600-dən artıq müasir, komfortlu o cümlədən sərinləndirmə sistemləri olan avtobus alınıb. Avropanın inkişaf etmiş şəhərləri ilə müqayisədə bu çox mühüm bir statistikadır. Alınan avtobusların ekoloji baxımdan təmiz Avro 6 standartlarına cavab verməsi görülən tədbirlərin əhəmiyyətini daha da artırır. Bütün bunlar isə vətəndaşlarımıza təhlükəsiz və rahat sərnişindaşıma xidmətlərinin göstərilməsi üçündür.

Bu gün sərinləndirmə sistemlərinin işə salınmaması da elə sərnişinlərimizin sağlamlığı və təhlükəsizliyi üçündür.

Məsələ ilə əlaqədar beynəlxalq təcrübədə tədqiq olunub. Məlumat üçün bildirək ki, hazırda Moskva və İstanbul şəhərlərində də avtobuslarda bütün havalandırma və kondisioner sistemi söndürülüb.

"Dəyərli media nümayəndələrindən və daim vətəndaş mövqeyindən çıxış edən sosial şəbəkə istifadəçilərindən məsələlərə doğru yöndən yanaşmalarını xahiş edirik", - deyə məlumatda bildirilib.

Bəli, hələlik ictimai nəqliyyatda sərinləndirmə sistemlərinin nə zaman işə salınacağı dəqiq deyil. Dəqiq olan isə odur ki, Operativ Qərargahın tələblərinə uyğun olaraq avtobuslarda maska taxmaq vacibdir. Bu addım sizin və yaxınlarınızın sağlamlığı üçün mütləqdir. Nə qədər çətin olsa da, gəlin qaydalara əməl edək. Məşhur atalar sözündə deyildiyi kimi, çətin günün ömrü az olar...

*Ruzbeh*

## Alman ekoloqlar yeni pilot layihəsi üzərində işə başlayıblar



**Almaniyanın paytaxtındakı ekologiya fəalları bu günlərdə yeni pilot layihəsinə start veriblər.** Şəhər təbiətinin gənc keşikçiləri Berlində vəhşi heyvanları müşahidə etməyə başlayıblar. Layihədə hələlik iyirmiyə yaxın könüllü müşahidəçi çalışır. Onlar mütəmadi olaraq kameralarla ərazini gəzir, vəhşi heyvanların davranışını və miqrasiyasını qeydə alırlar.

Könüllülər həm də qayda-qanuna necə riayət olunduğunu izləyirlər. Məsələn, zibil qabları dolu olduqda bu barədə şəhərin müvafiq xidmətlərinə məlumat verirlər, çünki heyvanlar qida axtara-axtara zibil qablarına girə bilərlər. Reyncerlər həm də əhalini məlumatlandırmaqla məşğul olur. Məsələn, əgər sakinlərdən kimsə qu quşunu çörəklə yemləyirsə, könüllülər həmin şəxsə izah edirlər ki, su quşlarının qidalanması sisteminə müdaxilə etmək olmaz. Bu əmələ görə, həmin şəxsi 1000 avro cərimə gözləyir.

Heyvanlar çətin vəziyyətə düşdükdə xüsusi xidmət nümayəndələri gələnə qədər könüllülər həmin heyvanları xilas etməlidirlər.

Qeyd etmək lazımdır ki, vəhşi heyvanların böyük şəhərlərə üz tutması zərurət üzündən baş verir. Kənd təsərrüfatında pestisidlərdən istifadə edilməsinə görə heyvanların qidalanma sistemi pozulur və onlar şəhərlərə üz tuturlar. Almaniya KİV-lərində yayılmış məlumata görə, ötən bazar günü bir dəstə qaban meşədən yola çıxıb, nəticədə həmin yolda skuter sürən gənc xəsarət alaraq xəstəxanaya düşüb. Hesablamalara görə, hər il 20 minə yaxın heyvan qida axtara-axtara Berlinə üz tutur.

## Koronavirusun altı fərqli növü müəyyən edilib



**Dünyanın müxtəlif regionlarda yeni tipli koronavirusun 10 mindən çox nümunəsinin strukturu təhlil edilərək məlum olub ki, hazırda dünyada bu virusun 6 müxtəlif növü yayılmaqdadır. Alimlər öz nəticələrinin bioRxiv elektron elmi kitabxanada dərc ediblər.**

ABŞ-ın Pensilvaniya Universitetinin dosenti Pol Plenetin rəhbərlik etdiyi epidemioloqlar qrupu yeni tipli koronavirusun 10 mindən çox genomunu müqayisə ediblər. Bu genom nümunələri son 6 ayda dünyanın müxtəlif ölkələrində xəstələnmiş insanların bədənindən götürülüb. Alimlər çox böyük həcmdə informasiyanı təhlil etmək üçün xüsusi alqoritmdən istifadə ediblər. Bu alqoritm bütün genetik məlumatlar bazasını oxuyur, funksional baxımdan tamamilə üst-üstə düşən və ya identik olan genom hissələrini və fraqmentləri bazadan silir. Alimlər yazırlar: "Bizim yaratdığımız alqoritm sürətlə yayılan epidemiyaların törədiciləri olan genomları sürətlə qruplaşdırmağa imkan verir. Biz bu metodikadan istifadə etməklə 10,4 min "SARS-CoV-2" ştammı öyrənərək aydınlaşdırdıq ki, bu virusun 6 klonal qrupu var".

Bu araşdırma sayəsində təhlil edilən məlumatın həcmini azaltmağa nail olmuş tədqiqatçılar zülalların və ya siqnal molekullarının strukturunu dəyişən, habelə onların daşıyıcısı olan insanların həyat fəaliyyətinə təsir göstərən bakterial tipli DNT və ya virus tipli RNT variasiyalarını seçiblər. Bu metodikanın köməyi ilə alimlər bakteriya və virus ştammlarının oxşar qruplarından ibarət 6 klonal qrup seçiblər.

# "Nar" alternativ enerji mənbəyi ilə çalışan yeni baza stansiyası istifadəyə verib

**"Nar" alternativ enerji sistemindən qidalanan ilk baza stansiyasını istifadəyə verib. Bakı şəhəri Səngəçal ərazisində quraşdırılmış baza stansiyası günəş panellərindən əldə olunan enerji ilə çalışır.**




Yeni baza stansiyası vasitəsilə kəsintisiz şəbəkə təcrübəsini, yəni enerji təminatının daimiliyini təmin etmək üçün hibrid günəş sistemindən istifadə olunur. Belə ki, sahədə quraşdırılan əlavə elektrik batareyaları günəş şüalarının azaldığı zaman, buludlu hava şəraitində, axşam və ya gecə saatlarında ehtiyat enerji rolunu oynayaraq fasiləsiz təchizatı qorumağa imkan verir.

Alternativ enerji mənbəyi olaraq günəş enerjisindən istifadənin ətraf mühit üçün bir çox faydaları var. Panellərə texniki qulluq prosesinin zərərsiz olması, batareyaların uzunömürlülüyü və davamlılığı ətraf mühitin qorunmasına öz müsbət töhfəsini verir. Daha dayanıqlı "yaşıl" həllər üzərində çalışan "Nar", bərpaolunan enerji mənbələrindən istifadəni artırmaq üçün gələcək perspektivləri də dəyərləndirir.

Hal-hazırda mobil operatorun 4G və 4.5G texnologiyalı baza stansiyaları ölkənin 54 regionunda əhalini yüksəksürətli internet və zəng xidmətləri ilə təmin edir. "Nar" şəbəkəsi ölkə ərazisinin 97,7%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2.3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. Daha ətraflı məlumat nar.az səhifəsindən əldə etmək olar.

ŞOU-BİZNES

## Eyni maskanı dəfələrlə taxdı, xəstəxanaya düşdü



**Aktrisa Esra Akkaya koronavirusdan qorunmaq üçün eyni maskanı bir neçə dəfə istifadə edib. Hafta.az qafqazinfo-ya istinadən xəbər verir ki, o, bu səbəbdən gözündə ciddi problemlərin yarandığını qeyd edib.** "Gözyaşı yolu iltihabı olmuşam. Çox qəribə bir şeydir, maskadan yaranan xəstəlikdir. Etiraf edirəm, bir maskadan dəfələrlə istifadə etmişəm. Yəni burundan gözyaşı yoluna bir çox bakteriyalar gedə bilər. Ağlıma belə gəlməzdi. Siz diqqətli olun", - aktrisa İnstaqram-da bildirib.

## Yerli tanınmışlar qumar oyunlarını reklam edir? - İşə polis qarışacaq



**Son günlər sosial şəbəkələrdə qumar oyunları ilə bağlı yayılan reklam çarxlarında tanınmış sənət adamlarının fotolarından istifadə edilir. Hafta.az axşam.az-a istinadən bildirir ki, hansısa bir oyunun reklamında onların bizlərə oynayıb çoxlu pul qazanmaq məsləhət gördüklərinə rast gəlirik.** Hətta özlərinin də bu oyun vasitəsilə yüksək pullar qazandıqları qeyd edilir. Bu cür hadisə ilə ilk qarşılaşan aparıcı Zaur Baxşəliyev olmuşdu. Zaur sosial şəbəkədə bununla bağlı paylaşım edərək, saytlara müraciət ünvanlamış, bunun yalan olduğunu vurğulamışdı. Aparıcı, hətta polisə şikayət edərək, bu hadisənin araşdırılmasını istəyib.

Daha sonra eyni görüntü sosial şəbəkədə Xalq artisti Murad Dadaşovla qarşımıza çıxdı. O da eyni Zaurun reklam etdiyi qumar oyununu məsləhət görərək, milyonlar qazanacağımızı iddia edib. Dələduzluqla məşğul olan "application" tanınmışların adından istifadə edərək insanların pullarını soymağa çalışırlar. Bu dəfə isə saxta reklam çarxının qurbanı müğənni Nigar Camal olub. Onlar sənətçinin özü üçün çəkdiyi və İnstaqram-ında yerləşdirdiyi bir videosunu götürərək, oyunun reklam çarxını hazırlayıblar. Nigar bundan xəbərsiz olduğunu bildirib və məsələ ilə bağlı hüquq mühafizə orqanlarına müraciət edəcəyini bildirib.

## Həkimlər məşhur aktyora "dəli köynəyi" geyindirməyə çalışdılar

**Moskvada həkimlər içkili vəziyyətdə qəza törədərək ölümə səbəb olmuş aktyor Mixail Yefremova "dəli köynəyi" geyindirməyə çalışıb. Aktyor uzun müddət evdən çıxmağa imtina etsə də, nəticədə ifadə vermək üçün polisə gedib. Xatırladaq ki, ötən gün içkili vəziyyətdə avtomobil idarə edən Mixail Yefremov qəza törədib. Qəza nəticəsində 1 nəfər həlak olub. Qəza ilə bağlı cinayət işi açılıb.**

İDMAN

## PSJ Tiaqo Silva ilə müqavilənin müddətini uzatmayacaq

**Fransanın "Paris Sen-Jermen" klubu braziliyalı müdafiəçisi Tiaqo Silva ilə yeni müqavilə imzalamayacaq. Bu barədə "L'Equipe" nəşri məlumat yayıb.**

Mənbənin məlumatına görə, Paris təmsilçisinin müqaviləni uzatmayacağı xəbərini futbolçuya klubun idman direktoru Leonardo bildirib. T.Silvanın hazırkı müqaviləsinin müddəti iyunun 30-da başa çatacaq.

"Paris Sen-Jermen" komandasında kapitan sarğısını daşıyan Tiaqo Silva 2012-ci ildə "Milan" klubundan transfer edilib. O, ötən səkkiz ildə altı dəfə Fransa çempionatının və Super Kubokunun, dörd dəfə isə ölkə kubokunun qalibi olub. Braziliya millisinin heyətində 88 oyunda meydana çıxan futbolçu 7 qol vurub.




Tiaqo Silva milli komanda ilə Konfederasiya Kubokunun (2013) və Amerika Kubokunun (2019) qalibi adını qazanıb.

## Ronaldu "Yuventus"u tərk edə bilər




**İtaliyanın "Yuventus" futbol klubunun portuqaliyalı hücumçusu Kriştianu Ronaldu klubunu dəyişə bilər. Bu barədə öz "Twitter" səhifəsində jurnalist və insayder Pyetro Baltsano yazıb.**

P.Baltsano bildirib: "Deyiləni təsdiq edirəm: mövsümün sonunda "Yuventus" və Ronaldunun yolları ayrıla bilər. Demək istəyirəm ki, bu, hələ şayiədir, konkret xəbər deyil, lakin mən bunun üzərində işləyirəm".

Qeyd edək ki, cari mövsümdə K.Ronaldu "Yuventus"un heyətində Seriya A-nın 22 oyununda iştirak edib, 21 qol vurub və 3 qolla nəticələnən ötürmə edib.

## "Mançester Yunayted"in oyunu ləğv edildi

**"Mançester Yunayted"in dünən "Stok Siti" ilə keçirməli olduğu yoxlama oyunu ləğv edilib. Buna Çempionşip təmsilçisinin baş məşqçisi Maykl O'Nildə koronavirus aşkarlanması səbəb olub.**




"Mançester Yunayted"in bazasında keçirilməsi nəzərdə tutulan matça bir neçə dəqiqə qalmış komandalar məsələdən agah olublar. Bu zaman, artıq isinmə hərəkətlərinə başlayan futbolçular dərhal meydanı tərk ediblər.

Qeyd edək ki, İngiltərə Premyer Liqasının iyunun 17-də bərpa ediləcəyi palnlaşdırılır.